

## JAPAROV AZƏRBAYCANA NİYƏ GƏLDİ?

Sadır Japarovun Prezident İlham Əliyevlə apardığı müzakirələr ikitərəfli əlaqələrin genişləndirilməsi baxımından yadda qala bilər. Bakı-Ankara tandemi müştərək maraqları baxımından Mərkəzi Asiya ölkələrindəki türk dövlətlərini əhəmiyyətli dərəcədə qorumağı hədəfləyir.

SƏHİFƏ 3-də

# AĞDAMDAKI MONİTORİNQ MƏRKƏZİ BAĞLANDI




Ağdam rayonu ərazisində yerləşən Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin təntənəli bağlanış mərasimi keçirilib. Mərasimdə Azərbaycan Ordusunun, Türkiyə və Rusiya Silahlı Qüvvələrinin rəhbər heyəti, həmçinin hər iki ölkənin respublikamızdakı səfirləri, hərbi qulluqçular və media nümayəndələri iştirak ediblər.

Mərasimdə qeyd edilib ki, Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonunda müvəqqəti yerləşdirilmiş Rusiya Federasiyasının sülhməramlı kontingentinin də iki ölkənin ali rəhbərliyi arasında əldə olunan razılığa əsasən fəaliyyətini vaxtından əvvəl dayandıraraq ölkə ərazisindən tam çıxarılması prosesinə başlanılıb.


'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

ÜÇ ƏSRİN QƏZETİ

Kaspi

27 APREL ŞƏNBƏ 2024 I 15 (4166)    Qiyməti - 40 qəpik    www.kaspi.az






# AVROPAYA YAŞIL ENERJİ İXRAC EDƏCƏYİK

Prezident İlham Əliyev Almaniyaya səfəri çərçivəsində vacib görüşlər keçirib. Dövlət başçısı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində də iştirak edib.

**ENERJİ TƏCHİZATINDA XÜSUSİ ROL**

Prezident İlham Əliyev bildirib ki, 2027-ci ilin sonuna qədər doqquz günəş və külək elektrik stansiyası istismara veriləcək.

Azərbaycanın Avropaya yaşıl enerjini ixrac etmək üçün çalışdığını vurğulayan dövlətimizin başçısı deyib: "Hesab edirəm ki, təbii qaz təchizatçısı olan Azərbaycan Avropa üçün yaşıl enerji təchizatçısı da olacaq".

**FƏALİYYƏTİMİZƏ HÖRMƏTİN ƏLAMƏTİ**

Prezident İlham Əliyev bildirib ki, COP29-a ev sahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir: "Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən yaşıl enerji sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik".

SƏHİFƏ 2-də

## CANLI ƏFSANƏ İLƏ NOSTALJİ SÖHBƏT

# "ÇOX XOŞBƏXTƏM Kİ, HƏYATIM BELƏ KEÇİB"



Xalq artisti, canlı əfsanə Natəvan Şeyxova ilə müsahibəmiz üçün görüş yerini Rəşid Behbudov adına Dövlət Mahnı Teatrını seçməyimiz təsadüfi olmadı. 60-70-ci illərin tanınmış estrada müğənnisinin yaradıcılığı bu səhnə ilə də bağlı olub. 56 il bundan öncə fəaliyyətə başlayan teatrın ilk konserti isə aprel ayına təsadüf edib. Natəvan xanım "Kaspi"yə müsahibəsində o dövrün görkəmli sənətkarlarını, musiqi mühitini yada saldı.

SƏHİFƏ 8-9-da



## XƏBƏRSİZ ŞİRKƏT "SAHİBİ" OLANLAR

Bəzən hansısa vətəndaşın adına bir deyil, bir neçə şirkətin açıldığı məlum olur. Bu cür şirkət "sahibləri" isə hansısa müəssisənin "rəhbəri" olduqlarından yalnız iş işdən keçəndən, şirkətin böyük vergi borcları yarandıqdan sonra xəbər tuturlar.

SƏHİFƏ 10-da



## MÖVSÜMÜ OLSA DA, QİYMƏTİ UCUZLAŞMIR

Pomidorun və xiyarın mövsümü başlayıb, deyə bilərik. Lakin bazarlarda əl yandıran qiymətlər səbəbindən bu tərəvəzlərə yaxınlaşmaq mümkün deyil. Fermerlər hesab edirlər ki, qarşıdakı müddətdə xiyar ucuzlaşsa da, pomidor ucuzlaşmayacaq.

SƏHİFƏ 11-də



## VAŞİNQTON DA PARİSİN YOLUNU GEDİR

Cənubi Qafqazda Fransanın sülh və sabitliyə əngəl olan destruktiv fəaliyyəti fonunda vəziyyəti daha da qəlizləşdirən yeni təzyiq dalğasını müşahidə etməkdəyik. Bu dəfə baş rolda Vaşinqtondur.

SƏHİFƏ 6-da



## NİKOL VƏ ANNANIN PUL SEVDALARI

Ermənistanın baş naziri Nikol Paşinyan həyat yoldaşı ilə birlikdə ölkədəki bütün biznes strukturlarını, iş adamlarını nəzarətə götürmək niyyətindədir. Bu məqsədlə iş adamları təzyiqlərə məruz qalır, şantaj edilirlər.

SƏHİFƏ 5-də



## "KİM TANINMAQ İSTƏYİR, AKTYOR OLUR"

Aktyor, rejissor və prodüser Ziya Ağa: "Nəzərə almaq lazımdır ki, alınan maaşla insanlar ailə dolandırır. Maaş indikindən beş dəfə artıq olsa, teatr da inkişaf edəcək, kino da".

SƏHİFƏ 15-də



Qərbin Mərkəzi Asiya planı

SƏHİFƏ 7-də



SOCAR ilə DVX arasında memorandum imzalanıb

SƏHİFƏ 12-də



Dünyanı biz təmin edirik, amma...

SƏHİFƏ 13-də



Qarabağın koloritini yazan yazıçı

SƏHİFƏ 14-də



Vəsiqələr uğrunda gərgin mübarizə

SƏHİFƏ 16-da

# AVROPAYA YAŞIL ENERJİ İXRAC EDƏCƏYİK

Prezident İlham Əliyev Almaniyaya səfəri çərçivəsində vacib görüşlər keçirib. Dövlət başçısı Berlində keçirilən “15-ci Petersberq İqlim Dialoqu”nun Yüksək Səviyyəli Seqmentində də iştirak edib.



Prezident İlham Əliyev Almaniyaya işgüzar səfər edib. Dövlət başçısının Berlində Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə öncə təkbətək, daha sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub. Daha sonra tərəflər birgə mətbuat konfransı keçiriblər.

### YENİ İQLİM HƏDƏFLƏRİ

Kansler Olaf Şolts bildirib ki, Azərbaycanın enerji sektorunda, xüsusilə külək, günəş enerjisi sahəsində 2030-cu ilə qədər faiz göstəricisini artıracağı çox gözəl xəbərdir. “Biz birgə iqlim siyasətinə dair məsələləri müzakirə edə bilərik. 2035-ci ilə qədər yeni iqlim hədəflərini formalaşdıra bilərik. COP29-da bu istiqamətdə müəyyən razılaşmalar əldə edəcəyimizə əminəm”, - o qeyd edib. O.Şolts Prezident İlham Əliyevə iqlim dəyişiklikləri ilə mübarizəsinə görə təşəkkür edib.

### KOMANDALARIMIZIN ÜZVLƏRİ SIX TƏMASDADIRLAR

Prezident İlham Əliyev isə öncə iki ölkə arasındakı münasibətlərdən danışıb. Bildirib ki, son vaxtlar Almaniyaya səfərləri müntəzəm xarakter alıb. “Deyə bilərəm ki, son müddət ərzində Almaniya-Azərbaycan əlaqələri sürətli inkişaf dövrünü yaşayır”, - dövlət başçısı deyib. Keçən ilin martında Berlində, iki ay əvvəl Münxendə Kansler ilə görüşdüyünü xatırladan dövlətimizin başçısı bildirib: “İkitərəfli gündəlik kifayət qədər genişdir. Almaniya-Azərbaycan əlaqələrinin inkişafı həm ölkələrimiz üçün, həm də bütövlükdə Cənubi Qafqazın inkişafı və sabitliyi üçün çox böyük əhəmiyyət kəsb edir”.

Prezident İlham Əliyev Almaniyanın COP29 ilə bağlı Azərbaycana göstərdiyi dəstəyə görə təşəkkürünü bildirib: “Bizim komandalarımızın üzvləri bir-biri ilə sıx təmasdadırlar. COP29-un ev sahibliyini etmək bizim üçün həm böyük şərəf, həm də məsuliyyətdir”.

## “Sülh danışıqlarını yüksək qiymətləndiririk”

Dövlət başçısı Ermənistanla sülh danışıqları prosesinə toxunub. “Ermənistanla Azərbaycan arasında gedən proses nəticəsində sərhədlərin delimitasiyası, hətta demarkasiyası da başlamışdır. 1990-cı və 1992-ci illərdə işğal edilmiş dörd Azərbaycan kəndi bizə qaytarılıb”, - deyə Prezident birgə mətbuat konfransında söyləyib.

Azərbaycanda yerləşmiş Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin aprelin 26-da səhər fəaliyyətini dayandırdığını vurğulayan dövlətimizin başçısı qeyd edib: “Yəni, sülhə nail olmaq üçün çox yaxşı fürsətlər var. Bu işdə bizə kömək etmək istəyən ölkələrlə əməkdaşlıq etməyə hazırıq”.

Prezident Azərbaycan ilə Ermənistan arasında gedən sülh danışıqlarını yüksək qiymətləndirdiyini bildirib. Olaf Şoltsun dəvəti ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin bu yaxınlarda Almaniyada görüşdüklərini xatırladan dövlət başçısı bildirib: “Növbəti görüş Qazaxıstanda planlaşdırılacaq və beləliklə, sülh sazişinin imzalanmasına doğru biz əlavə addımlar atırıq”.

### ALTI MİN KEÇMİŞ KÖÇKÜN ÖZ DƏDƏ-BABA TORPAĞINA QAYIDIB

İşğaldan azad edilən ərazilərin bərpasına da toxunan İlham Əliyev vurğulayıb ki, müharibədən sonra altı min keçmiş məcburi köçkün öz dədə-baba torpağına qayıdıb və bu proses davam etdirilir. Bu ilin sonuna qədər 20 min məcburi köçkünün doğma yurduna qayıdacağını bildirən dövlətimizin başçısı qeyd edib ki, bu, ümumxalq məsələsidir: “Torpaqlarımızın azad edilməsi necə ümumxalq məsələsi idisə, torpaqların bərpa olunması da ümumxalq məsələsidir”.




Avropanın enerji təchizatında ölkəmizin roluna da toxunan Prezident İlham Əliyevin sözlərinə görə, 2027-ci ilin sonuna qədər doqquz günəş və külək elektrik stansiyası istismara veriləcək.

Azərbaycanın Avropaya yaşıl enerjini ixrac etmək üçün fəal çalışdığını vurğulayan dövlətimizin başçısı deyib: “Hesab edirəm ki, təbii qaz təchizatçısı olan Azərbaycan Avropa üçün yaşıl enerji təchizatçısı da olacaq”.

Prezident bildirib ki, Avropada təbii qaza - yeni mənbələrdən olan qaza tələb artır. Əgər 2021-ci ildə biz Avropa İttifaqı ölkələrinə səkkiz milyard kubmetr qaz təchiz etmişdiksə, bu il bu rəqəm 12 milyarda çatıb. Biz əlavə sərmayə qoyuruq, əlavə vəsait ayırırıq ki, Avropa ölkələrini bu məsələdə dəstəkləyək.

### MÜXTƏLİF QİTƏLƏRİN ÖLKƏLƏRİ ARASINDA KÖRPÜ

Prezident İlham Əliyev Almaniyaya səfəri çərçivəsində Berlində keçirilən “15-ci Petersberq İqlim Dialoqu”nun Yüksək Səviyyəli Seqmentində də iştirak edib. Tədbirdə çıxış edən dövlət başçısı bildirib ki, COP29-a ev sahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir: “Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən yaşıl enerji sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik. Nəhayət bu, böyük məsuliyyətdir, çünki biz nəinki yaxşı tədbir təşkil etməli, o cümlədən yaxşı nəticələrə nail olmalıyıq”.

Dövlət başçısı deyib ki, enerji təhlükəsizliyi birmənalı olaraq ölkələrin milli təhlükəsizlik məsələsi hesab edilməlidir: “Ayrı-seçkilik olmamalıdır. Faydalı qazıntı ilə zəngin olan ölkənin rəhbəri kimi, əlbəttə ki, biz həmin ölkələrin sərmayəni və hasilatı davam etdirmək hüququnu müdafiə edəcəyik, çünki dünyanın buna ehtiyacı var. Lakin, eyni zamanda, artıq qeyd etdiyim kimi, faydalı qazıntısı olan ölkələr iqlim dəyişmələri məsələlərinə aid həmrəyliyi nümayiş etdirən ölkələr sırasında olmalıdırlar”.

Qeyd edək ki, Almaniyaya səfəri çərçivəsində Prezident İlham Əliyev həmçinin xarici işlər naziri Annalena Berbok, Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir, almaniyalı həmkarı Frank-Valter Ştaynmayer ilə də bir araya gəlib.



# JAPAROV AZƏRBAYCANA NİYƏ GƏLDİ?

Sadır Japarovun Prezident İlham Əliyevlə apardığı müzakirələr ikitərəfli əlaqələrin genişləndirilməsi baxımından yadda qala bilər. Bakı-Ankara tandemi müştərək maraqları baxımından Mərkəzi Asiya ölkələrindəki türk dövlətlərini, o cümlədən Qırğızıstanı əhəmiyyətli dərəcədə qorumağı hədəfləyir.



AQŞİN KƏRİMOV

Bu həftə siyasi gündəmdə yaddaqalan hadisələrdən biri də Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Azərbaycana dövlət səfəri oldu.

Sadır Japarovun səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə apardığı müzakirələr ikitərəfli əlaqələrin genişləndirilməsi, çoxvektorlu əməkdaşlıq ruhunun gələcək modelləri üçün asan hallərin hazırlanması kimi yadda qala bilər.

### 18 SƏNƏDDƏKİ MƏZMUN

Bildirək ki, səfər zamanı Azərbaycanla Qırğızıstan arasında 18 sənəd imzalandı. Həmin sənədlərin məzmunlarını ümumi şəkildə təqdim etsək, deyə bilərik ki, onlar iqtisadi-ticari, nəqliyyat əlaqələrinin dinamikası üzrə perspektivi vurğulayır.

Prezident İlham Əliyev həmkarı ilə mətbuata birgə bəyanat zamanı həmin istiqamətləri belə açıqlayıb: "Bu gün biz, həmçinin energetika, nəqliyyat sahələrini geniş müzakirə etdik. Burada da potensial görürük. Biz Qırğızıstanda bərpaolunan enerji üzrə investisiya layihələrində maraqlıyıq. Nəqliyyat sahəsinə gəldikdə, həm Qırğızıstanda, həm də Azərbaycanda irimiqyaslı nəqliyyat layihələri, dəmir yolunun tikintisi həyata keçirilir. Əlbəttə, artıq indi nəqliyyat marşrutlarının rəqəmsallaşdırılmasının və tarif siyasətinin razılaşdırılması baxımından məsləhətləşmələr aparmağa başlamaq lazımdır. Biz Xəzər, Mərkəzi Asiya vasitəsilə Avropaya marşrutu təkcə məsafə nöqteyi-nəzərindən deyil, həm də kommersiya cəlbediciliyi baxımından əlverişli etməliyik".

Sadır Japarov isə bildirib: "Danışıqlar əsnasında Mərkəzi Asiya və Cənubi Qafqazdan keçən beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı məsələsində iki ölkənin qarşılıqlı fəaliyyətinin perspektivləri müzakirə olundu".

Bu bəyanatlar onu deməyə əsas verir ki, tərəflər ikitərəfli münasibətlərdə və beynəlxalq təşkilatlarda bir-birilərinə dəstək ifadə edən məqamların vacibliyini vurğulamaqla yanaşı, geosiyasi mühitdəki daha geniş regional kontekstə nəzər salırlar.



## TƏHLÜKƏSİZLİK NAMİNƏ

Məsələni daha da aydınlaşdırmaq üçün demək lazımdır ki, Qırğızıstan hərbi qüdrət və iqtisadi indekslər baxımından elə də güclü ölkə sayıla bilməz. Amma Bişkekin Türk Dövlətləri Təşkilatındakı (TDT) üzvlüyü ona əlavə iqtisadi və siyasi, geosiyasi dividendlər qazandırır.

Bu vəziyyətin formalaşmasında Azərbaycan və onun strateji müttəfiqi Türkiyə böyük rol oynayır. Bakı-Ankara tandemi müştərək maraqları baxımından Mərkəzi Asiya ölkələrindəki türk dövlətlərini, o cümlədən Qırğızıstanı Qərb-Rusiya-Çin rəqabətinin yarada biləcəyi fəsadlardan əhəmiyyətli dərəcədə qorumağı hədəfləyir.

Buna görə də, Qırğızıstanda TDT kimliyini gücləndirməklə yanaşı, ölkədə siyasi sabitlik, davamlı təhlükəsizlikdə maraqlı olmağı nümayiş etdirmək olduqca əhəmiyyətlidir.

Azərbaycan dövləti İlham Əliyevin timsalında bütün regionlarda sabitlik və təhlükəsizliyə dəstək bəyanatlarını göstərir. Ancaq şiddətlənən qlobal güc konsentrasiyasındakı rəqabət fonunda bir çox region xarici müdaxilələrə açıq məkan olaraq qalmaqdadır.

Qırğızıstanın da siyasi və təhlükəsizlik vəziyyəti həssasdır və o, güc rəqabətinin arasında kritik sıxılmalara məruz qala bilmək riskini itirməyib.

Buna görə də Qırğızıstanda siyasi, iqtisadi və təhlükəsizlik üzrə stabilliyi şərtləndirmək üçün genişmiqyaslı investisiya layihələrinə diqqəti artırmaq zərurəti yaranır.

Elə bu səbəbdən təsadüfi deyil ki, İlham Əliyevlə Sadır Japarov qarşılıqlı iqtisadi-ticari və nəqliyyat sahəsindəki əməkdaşlıqların işığında investisiya portfelləri üzrə mövqelər səsləndirdilər.

Təbii ki, Mərkəzi Asiya regionunda Çinin iqtisadi rıçaqlarını bərkitməsi diqqətdən kənarda qala bilməz. Pekin "Bir Kəmər, Bir Yol" təşəbbüsü çərçivəsində Mərkəziyə Asiyaya əhəmiyyətli iqtisadi sərmayələr qoyur və infrastrukturun inkişafı üçün əhəmiyyətli imkanlar təqdim edir.

Bişkek administrasiyası üçün bunun ən son nümunəsi Çin-Qırğızıstan-Özbəkistan Dəmir Yolu Layihəsidir.

İndi üçün Çin-Qırğızıstan-Özbəkistan-Xəzər dəmir yolu layihəsini həll etmək və əmtəə dövriyyəsinin artmasına imkanlar yaratmaq Bakı-Bişkek xəttində vacib prioritet olaraq görünə bilər.

## QARŞILIQLI GÖZLƏNTİLƏRDƏKİ PROFİLLƏRİ YÜKSƏLTMƏYƏ XİDMƏT EDƏN SƏFƏR

Beləliklə, Qırğızıstan Azərbaycanla münasibətlər və TDT-dəki təmsilçilik fonunda ölkəni əhəmiyyətli sağlam balansa söykəmək çağırışlarına baxmalıdır.

Bu baxımdan demək olar ki, TDT-nin siyasi nizamı Rusiya-Qərb-Çin arasında çoxvektorlu və çöxölçülü yanaşmasını göstərməkdən çəkinmir. Ona görə ki, regionda Transxəzər Nəqliyyat Dəhlizi (Orta Dəhliz) də olmaqla, bir çox layihə Çinin geosiyasi imkanlarına diqqəti ayırır. Bu diqqətin artırılması sözsüz ki, Qərb və Rusiyanı maksimum dərəcədə bir-biriləri ilə mübarizə fonunda daha kəskin rəqabətə fokuslayır.

Ancaq Qırğızıstan siyasi elitasında Qərb oriyentasiyasına diqqət ayrılması biristiqamətli iqtisadi asılılığın qarşısını alır, birbaşa və ya dolayısı ilə xarici investisiyaların cəlb edilməsini asanlaşdırır. Bu mənada TDT-dəki aparıcı qüvvə kimi Azərbaycan Mərkəzi Asiyada qlobal səviyyədə təsirini hiss etdirən potensial hegemon gücləri daha çox iqtisadi formatda sağlam rəqabətə kökləməkdə maraqlıdır.

Hərbi qarşıdurma olmadan aparıla biləcək sağlam rəqabət Mərkəzi Asiya regionuna daxil olan Qırğızıstanı iqtisadi əməkdaşlıq və siyasi oriyentasiya baxımından daha çox TDT-nin təsirlərinə uyğunlaşdırır. Bu oriyentasiyanın saxlanılması üçün ideoloji-mədəni aspektlərə nəzər yetirmək mütləqdir, buna görədir ki:

- Prezident Sadır Japarovun Bakıda Çingiz Aytmatovun abidəsinin açılış mərasimində iştirak etməsi,
- Bir gün sonra TDT-nin əhəmiyyətini çoxaldan Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfəri qarşılıqlı anlaşmaları təşviq edir.

Nəticə olaraq deyə bilərik ki, Qırğızıstan Prezidentinin Azərbaycana səfəri həmin dövlətin və Bakının qarşılıqlı gözləntilərindəki profilləri yüksəltməyə xidmət edir.

Bu reallığa uyğun olaraq, Azərbaycanla Qırğızıstanın daha güclü regional əməkdaşlığa əsaslanan təhlükəsizlik axtarışlarını genişləndəcəyini proqnozlaşdırmaq mümkündür.

## "BİZ RAZILAŞMAYA OLA BİLSİN HEÇ VAXT OLMADIĞI QƏDƏR YAXINIQ"




# ÜFÜQDƏ SÜLH GÖRÜNÜR

**Prezident İlham Əliyev: "Deyə bilərəm ki, biz yalnız indi mahiyyət baxımından real danışıqlara yaxınlaşırıq. Çünki suverenliyimizin və ərazi bütövlüyümüzün tam bərpasından sonra Ermənistan həmin müddəanı aradan qaldırdı və əlbəttə ki, artıq Qarabağ kəlməsinin heç bir aspektini dilə gətirmir".**



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Prezident İlham Əliyev bir neçə gün əvvəl ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumdakı çıxışı zamanı bir çox mühüm məqamlara aydınlıq gətirib. Həm regional, həm də beynəlxalq müstəvidə yaşanan proseslərə, müxtəlif məsələlərə Azərbaycan dövlətinin baxışını, yanaşmasını ortaya qoyub. Təbii ki, dövlət başçısı açıqlamalarında Ermənistanla münasibətlərin normallaşması, sülh perspektivlərinə xüsusi yer verib.

### "REAL DANIŞIQLARA YAXINLAŞIRIQ"

İki ölkə arasında sülh perspektivlərinə toxunan İlham Əliyev bu məsələdə nikbinlik nümayiş etdirib. "Sülh danışıqları prosesində ciddi irəliləyişə nail olmaq ehtimalının yüksək olması qənaətindəyəm", - dövlət başçısı bildirib. Prezidentin sözlərinə görə, danışıqlar bu yaxınlarda bərpa olunub: "Deyə bilərəm ki, biz yalnız indi mahiyyət baxımından real danışıqlara yaxınlaşırıq. Çünki suverenliyimizin və ərazi bütövlüyümüzün tam bərpasından sonra Ermənistan həmin müddəanı aradan qaldırdı və əlbəttə ki, artıq Qarabağ kəlməsinin heç bir aspektini dilə gətirmir. Bununla da ən mühüm maneə aradan qalxdı və hesab edirəm ki, digər müddəalar razılaşdırıla bilər, çünki orada hər hansı bir yenilik, yeni icad yoxdur, bütün prinsiplər beynəlxalq hüququn normalarına və praqmatik yanaşmaya əsaslanır".

### "BİZ YALNIZ PLATFORMA, MƏKAN BARƏDƏ DANIŞIRIQ"

Prezident danışıqların müxtəlif ölkələrdə keçirilməsi məsələsinə də aydınlıq gətirib. Deyib ki, Qazaxıstan tərəfi Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin Qazaxıstanda görüşünün təşkili ilə bağlı müraciət edib: "Biz buna razılığımızı vermişik və Ermənistan da buna razı olsa, iki ölkənin xarici işlər nazirlərinin növbəti görüşü Qazaxıstanda baş tuta bilər. Burada bir məqama aydınlıq gətirmək istərdim. Söhbət hər hansı vasitəçilikdən getmir. Çünki bu gün sərhədimizdə baş verənlər onu nümayiş etdirir ki, bizimlə heç kəsin işi olmadığı, bu vəziyyətin kiminsə siyasi ambisiyaları naminə istifadə edilmədiyi halda biz gec-tez razılığa gələ bilərik. Beləliklə, biz yalnız platforma, məkan barədə danışırıq. Belə bir təklif üçün Qazaxıstan hökumətinə də minnətdarıq. Hesab edirəm ki, indi biz Ermənistan tərəfinin cavabını gözləməliyik. Amma yenə də müzakirə olunan məsələnin mahiyyətinə qayıdaraq hesab edirəm ki, biz razılaşmaya ola bilsin heç vaxt olmadığı qədər yaxınıq. Çünki işğal dövründə biz razılaşmaya heç vaxt bu qədər yaxın olmamışdıq".

Prezidentin sözlərinə görə, indi sülh razılaşmasının necə olmalı olduğuna dair bizdə ümumi anlayış var: "Biz, sadəcə, təfərrüatlar üzərində çalışmalıyıq. Lakin əlbəttə ki, hər iki tərəfə vaxt lazımdır, çünki sülh müqaviləsi imzalandığı təqdirdə, bu, hər iki ölkə üçün tarixi razılaşma olacaqdır. Buna görə hər bir söz, hər bir nöqtə, hər bir paraqraf vacibdir. Lakin vacib olan odur ki, hər iki tərəfin bunu etmək üçün siyasi iradəsi var".



## "Delimitasiya və sülh razılaşması iki ayrı məsələdir"

Dövlət başçısı vurğulayıb ki, delimitasiya və sülh razılaşması iki ayrı məsələdir. Onları birləşdirmək və bir-birindən asılı etmək yanlış olar. Bunun çox sadə bir səbəbi var. Bizim Ermənistanla sərhədimiz təxminən min kilometrdir. Sərhədin böyük hissəsində məskunlaşma tamamilə olmayıb, dağların hündürlüyü 3500 metrdir, ilin 9 ayı qarla örtülü olur. Bu, həqiqətən də çox mürəkkəb relyefdir. Praktiki nöqteyi-nəzərdən qısa müddətdə bu sərhədin delimitasiyası mümkün deyil: "Bu, ləng gedən prosesdir, bu proses yüksək dəqiqlik tələb edir. Ona görə də biz Ermənistanla Azərbaycan arasında sərhədin delimitasiyasını gözləyib sonra sülh razılaşması imzalasaq, bizə daha 30 il vaxt lazım olacaq. Bizim təklifimiz bu iki məsələni ayırmaqdan ibarətdir".

Delimitasiyanın Qazaxın işğal olunmuş kəndlərindən başlanmasının Azərbaycanın təklifi olduğunu bildirən Prezidentin sözlərinə görə, dövlət sərhədimizin təxminən 10 və ya 12 kilometri artıq delimitasiya olunmuş hesab edilir. Bu, mühüm məqamdır. "Biz bir xətti tutaraq "kor pişik" kimi bu xətlə getməməliyik. Biz xətti əsas kimi götürürük, amma məntiqli olmalıyıq və hər iki tərəf üçün təhlükəsiz, hər iki tərəf üçün rahat olacaq sərhədlə bağlı razılığa gəlməliyik", - İlham Əliyev deyib.

## "Onlar mənim dediklərimə qulaq asmalıdırlar"

Prezident Ermənistanın sürətlə silahlandırılması məsələsinin rəsmi Bakı tərəfindən diqqətlə izlənildiyini qeyd edib. "Biz Fransanın, Hindistanın və Yunanıstanın Ermənistanı bizə qarşı necə silahlandırdığını və bunu açıq, nümayişkaranə şəkildə etdiyini, sanki bizə nəyisə sübut etməyə çalışdığını görüb, sakit oturub gözləyə bilmərik. Biz, sadəcə, oturub gözləyə bilmərik və biz bu mövqeyi Ermənistan hökumətinə, indi Ermənistanın qayğısına qalmaq istəyənlərə açıq şəkildə bildiririk. Bizə qarşı ciddi təhlükə görsək, ciddi tədbirlər görməli olacağıq", - İlham Əliyev deyib.

Dövlət başçısı bildirib ki, separatizmə son qoyduğumuz bir neçə saatlıq antiterror əməliyyatı ilə də biz onlara gücümüzü nümayiş etdirdik: "Bizim Ermənistana qarşı yenə də pis niyyətimiz yoxdur. Bizim onların ərazisinə heç bir iddiamız yoxdur, amma onlar başa düşməlidirlər ki, birincisi, bu silahlar onlara kömək etməyəcək. İkincisi, bu, təhlükəlidir və mənim vəzifəm onlara, həmçinin onların arxasında duran və onları manipulyasiya edənlərə xəbərdarlıq etməkdir ki, bu, həqiqətən təhlükəlidir və onlar mənim dediklərimə qulaq asmalıdırlar. Çünki bilirlər ki, sözlərimə qulaq asmalıdırlar. Mənim tövsiyəm budur".

ERMƏNİSTANDA HAKİM AİLƏNİN YENİ RÜŞVƏT QALMAQALI

# NİKOL VƏ ANNANIN PUL SEVDALARI



Ermənistanın baş naziri Nikol Paşinyan həyat yoldaşı ilə birlikdə ölkədəki bütün biznes strukturlarını, iş adamlarını nəzarətə götürmək niyyətindədir. Bu məqsədlə iş adamları təzyiqlərə məruz qalır, şantaj edilirlər.

FUAD ABASOĞLU

2018-ci ildə Sorosun ətəyindən yapışaraq Ermənistanda hakimiyyətə sahiblənən Nikol Paşinyan ilk günlərdə oliqarxlara qarşı savaş elan edəcəyini bildirmişdi. Son illər isə baş verən hadisələr əslində baş nazirin yeni oliqarx nəsli yaratdığından xəbər verir. Artıq bir müddətdir ki, Paşinyan cütlüyünün adı bu tip qalmaqallarda hallanır. Həyat yoldaşı Anna Akopyanla birlikdə köhnə oliqarxları müxtəlif maddələrlə həbsə atdıran baş nazir yeni oliqarxların yolunu açır, onların müxtəlif tenderlərdə qalib gəlməsini təmin edir. Baş verənlər isə həm müxalifətin, həm də kilsənin ciddi tənqidlərinə səbəb olub.

İngiltərənin "The Times" qəzetində dərc olunan məqaləyə əsasən, Böyük Britaniyanın Xarici İşlər Nazirliyi Ermənistan, Fil Dişi Sahili, Kosta-Rika və Botsvana ilə müzakirələr aparır. Bu müzakirələrin əsas mövzusu rəsmi Londonun 18 aydır qeyri-qanuni mühacirləri qəbul etməyə hazır olacaq ölkələr axtarışıdır. Qeyd edilir ki, Britaniya hakimiyyəti miqrantların sığınacaq tələblərinə baxana qədər onlar yuxarıda qeyd edilən ölkələrdə yerləşdirilməlidirlər. Eyni zamanda qeyd edilir ki, Ermənistan bu sövdələşmədən ən azı 290 milyon funt-sterlinq əldə edəcək. Hər miqrant üçün bir neçə min funt sterlinqin də təklif edildiyi bildirilir.

## PAŞİNYANIN DEMOQRAFİYA OYUNU

Bu xəbərin ortaya çıxması bəzi mətləblərdən xəbər verir. Baş nazir çıxışlarının birində qeyd etmişdi ki, 2030-cu ilə qədər Ermənistanda əhalinin sayı beş milyon nəfər olacaq. Nəzərə alsaq ki, erməni dövləti sürətlə boşalır və hər gün ölkəni tərk edənlərin sayı artır, deməli, bu bəyanat absurd mahiyyət daşıyır. Ehtimal edilir ki, məhz Britaniya ilə sövdələşmə nəticəsində Paşinyan erməni dövlətində əhali sayını artırmağı planlaşdırır. Belə bir müqavilənin imzalanması ilə qərb "qonşumuz"un tezliklə İngiltərənin "qeyri-qanuni mühacirlər" koloniyasına çevrilməsini müşahidə edə bilərik. Əslində bu təklif bir neçə dövlətə təqdim edilib. Mərakeş, Tunis, Namibiya və Qambiya kimi dövlətlər məsələni müzakirə etməkdən belə imtina ediblər. Görünür, həm əhali sayını artırmaq, həm də milyonlarla funt-sterlinq Nikolun yuxusuna haram qatdığı üçün belə bir addıma razılaşıb.

Maraqlı faktdır ki, xəbər mediaya sızandan sonra Ermənistanın Xarici İşlər Nazirliyi təkzibə oxşar bir bəyanat yayımlayıb. XİN-in mətbuat katibi bildirib ki, rəsmi İrəvanla London arasında geniş siyasi dialoq gündəliyi var. Amma nəşrin yaydığı konkret məsələ ilə bağlı heç bir substantiv və texniki danışıqlar aparılmayıb. Göründüyü kimi, diplomatın bu açıqlaması nə təkzib, nə də təsdiq sayıla bilər. "Geniş gündəm var və məsələ ilə bağlı heç bir danışıq aparılmayıb", - demək isə gələcəkdə real razılaşmaların olma ehtimalını qüvvətləndirmək üçün ortaya atılan fikirdir. Əgər belə bir danışıq və razılaşma yoxdursa, XİN konkret olaraq inkar etməlidir.

## ANNANIN MİLYONLUQ ŞAM YEMƏYİ

Rəsmi İrəvanı çalxalayan ikinci qalmaqal isə Anna Akopyanın təşəbbüsü ilə "Uğurlu qadın biznesmenlərə dəstək" adı altında şam yeməyinin təşkili olub. Gecədə iştirak etməyin qiyməti isə bir milyon erməni dramı, yəni 26 min dollara yaxın bir vəsait olub. Ermənistan mediasını diqqətlə izlədikdə məlum olur ki, təşəbbüs uğursuz olub. Erməni iş qadınlarından cəmi bir neçəsi bu çağırışa müsbət cavab verib. Onların gecəyə qoşulma səbəbi isə sonradan vergi yoxlaması və digər strukturlar vasitəsilə narahat edilmə ehtimalını ortadan qaldırmaq olub. Biabırçılığın qarşısına keçmək üçün isə hakim partiyanın köhnə və yeni oliqarxları ortaya atılıblar.

Siyahıya nəzər saldıqda və iştirakçıların kimliyini araşdırdıqda bu nəticə ortaya çıxır. Məsələn, keçmiş deputat-oliqarx Samvel Aleksanyanın həyat yoldaşı görüşə qızlarını, qohumlarını və rəfiqələrini də aparıb. "Marianna" süd şirkətinin sahibi, "Vivaro" bukmeker şirkətinin sahibi Vigen Badalyanın həyat yoldaşı da tədbirdə iştirak edib. Eyni zamanda, parlamentin spikeri Alen Simonyanın həyat yoldaşı, deputat Xaçatur Sukiasyanın qızı, Simonyanın oliqarx dostu Edqar Avaqyanın həyat yoldaşı kimi qadınlar da Annanın qonağı olublar. Göründüyü kimi, bu şəxslərin böyük əksəriyyəti hakim partiyanın dəstəyi ilə oliqarx kimi tanınan iş adamları, deputat və siyasətçilərdir. "İş qadınları"nı zorla bir yerə yığan Anna sərt tənqidlə üzləşib. Erməni mediası maraqlı detallar üzə çıxarıb və tədbirin fiaskoya uğradığı barədə məqalələr yazıb. Qeyd edilib ki, əslində görüşün əsas məqsədi ölkədə yeni oliqarxiya yetişdirmək, hakim partiyanın "qanadları" altında olmayan iş adamlarını nəzarət altına almaq olub.

Göründüyü kimi, baş nazir həyat yoldaşı ilə birlikdə Ermənistanı güc yolu ilə idarə edərək, bütün biznes strukturlarını, iş adamlarını nəzarətə götürmək niyyətindədir. Bütün bu faktlar Paşinyan hakimiyyətinin cılızlığını və korrupsiya bataqlığında boğulduğunu bir daha sübut edir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# VAŞİNQTON DA PARİSİN YOLUNU GEDİR



Fransanın ardınca ABŞ-nin də Cənubi Qafqazla bağlı məkrli oyunları üzə çıxmaqdadır. Hədəf bölgəni yeni Ukraynaya çevirməkdir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Cənubi Qafqazda Fransanın sülh və sabitliyə əngəl olan destruktiv fəaliyyəti fonunda vəziyyəti daha da qəlizləşdirən yeni təzyiq dalğasını müşahidə etməkdəyik. Bu dəfə baş rolda Vaşinqtondur. Hansı ki, bir müddət əvvələ qədər Vaşinqtonun Azərbaycan və Ermənistan arasında aparılan sülh danışıqlarında konstruktiv mövqe sərgilədiyinə dair ümumi bir təsəvvür yaranmışdı. Lakin pərdə arxasındakı məqamlar gün işığına çıxmağa başladığı andan Vaşinqton da əsl simasını göstərməyə başlayıb. Bu qənaətə gəlmək üçün kifayət qədər əsaslar mövcuddur.

## VƏDİNƏ XİLAF ÇIXAN VAŞİNQTON

Öncə ondan başlayaq ki, bir neçə ay əvvəl ABŞ xüsusi xidmət orqanları və Dövlət Departamentinin birbaşa nəzarətində olan mərkəzlər və media orqanları “Azərbaycan Ermənistana hücuma hazırlaşır” tezisini inkişaf etdirməyə başladı. Özü də ortaya heç bir fakt, dəlil qoymadan və Bakının sülh danışıqlarına sadiqliyini bəyan etməsinin fonunda. Konqresdə Dövlət Departamentinin yüksək vəzifəli rəsmisi Ceyms O Braynın Bakı-Vaşinqton münasibətlərinə kölgə salan anti-Azərbaycan bəyanatlarının üstündən o qədər də çox vaxt keçməyib. Düzdür, məlum olaydan sonra tərəflər gərginliyin artmaması üçün ümumi razılığa gəlsələr də, görünən odur ki, ABŞ-nin Azərbaycana qarşı ikili standartlara əsaslanan siyasətində elə ciddi bir dəyişiklik yoxdur.

Biz bunu Avropa İttifaqı-ABŞ-Ermənistan üçlüsünün Brüsseldə keçirilən görüşünün əsl mahiyyətini ifşa edən gizli razılaşmaların gün işığına çıxması fonunda da müşahidə edirik. İsrarla bu danışıqların iqtisadi dəstək mahiyyəti daşıdığı bəyan edilsə də, yayılan son sənədlər Ermənistana güclü hərbi dəstəyin göstərilməsi və ümumilikdə Cənubi Qafqazın təhlükəsizlik strukturunun tamamilə dəyişdirilməsinin hədəfləndiyi ortaya çıxır. Təbii ki, Ermənistana birbaşa hərbi yardımların edilməsinin kimə qarşı istiqamətləndiyi heç kimə sirr deyil. İrəvanın “düşmən” obrazında dünyaya təqdim etdiyi əsas dövlət Azərbaycandır. Halbuki bu gün Ermənistanın düşdüyü vəziyyətin əsl səbəbkarı İrəvanın 30 ildən artıq davam edən işğal siyasətidir. Bu reallığı illərlə mənasız danışıqlarla torpaqlarımızı Ermənistana güzəştə getmək üçün Bakıya bağlı qapılar arxasında təzyiqlər göstərən ABŞ də gözəl bilir. Hansı ki, uzun illər bədnam Minsk Qrupunun əsas həmsədrlərindən biri olub.



## ABŞ-NİN PLANLARINI ALT-ÜST EDƏN HƏMLƏ

İndi isə Azərbaycan rus sülhməramlılarının ölkəmizdən çıxarılması prosesinə başlayıb. Özü də qansız, qadasız. Hətta bu prosesin yaşandığı günlərdə Prezident İlham Əliyevin Rusiyaya işgüzar səfəri və həmkarı Vladimir Putinlə apardığı müzakirələr Bakının bölgədə real siyasət anlayışını çox uğurla tətbiq etdiyinin əyani göstəricisidir. Bununla belə, dünyanın hər yerində rus əsgərini özünün milli maraqlarına təhdid kimi görən Vaşinqtonun sülhməramlıların Qarabağı tərk etməsinə göstərdiyi reaksiya çox qəribədir. Əslində bu yanaşmanın özü də məkrli planların mövcudluğundan xəbər verir. Çünki Ağ Evin planlarında rus hərbçilərinin mövcudluğu Bakı ilə Moskva arasında gələcək siyasi və hərbi gərginliyin əsasını təşkil etməli idi. Əsrlər boyu formalaşmış “ruslar girdikləri yerlərdən çıxmırlar” tezisinin Qarabağdakı sülhməramlılar timsalında özünü doğrultmaması Vaşinqtonun bəlkə də yaxın və orta perspektivdə Cənubi Qafqazı yenidən qaynar qazana çevirmək planlarını alt-üst edib.

## ABŞ-NİN QARŞI ÇIXDIĞI LAYİHƏLƏR

Bütün bu proseslər fonunda Azərbaycan və Ermənistan ikitərəfli danışıqlar əsasında illərdir işğal altında qalan dörd kəndimizin geri qaytarılması barədə razılığa gəlib. Xüsusi vurğulanmalı bir məqam var - məhz ikitərəfli danışıqlar fonunda, nə Vaşinqton, nə də Brüsselin “tərəfsiz” vasitəçiliyi ilə. Sərhədlərin delimitasiya prosesinə start verilir. Bu formatın bölgədə sülh və sabitliyə ən uğurlu töhfə verə biləcək bir müstəvi olduğunu İrəvan da anlayır. Bakı bölgədə təhlükəsizliyin təminatı rolunda çıxış edə biləcək tranzit nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi üçün yeni razılaşmalara imza atır. Buraya həm Şərq-Qərb, həm də Şimal-Cənub layihələri daxildir. Hansı ki, sülh olacağı təqdirdə Ermənistanın da iqtisadi inkişafında mühüm rol oynayacaq. Lakin gərgin beynəlxalq vəziyyət və böyük dövlətlərin şərtlərini digərlərinin milli maraqlarını nəzərə almadan diktə etməyə çalışması fonunda ABŞ və Rusiyanın maraqlarının toqquşduğu bu layihələrlə bağlı Vaşinqtonun Azərbaycana qarşı təzyiqlər göstərdiyi də istisna deyil. Bu günlərdə Konqresə təqdim olunan və sanksiya tətbiq olunması tələb edilən “siyahı”nı da bu fonda dəyərləndirə bilərik. Siyahıda Azərbaycanın haqq müharibəsində qəhrəmanlıq göstərən əsas hərbi rəhbərliyinin, o cümlədən, bəşəriyyətə qarşı hərbi cinayət törətməkdə ittiham olunan separatçıların məhkəmə prosesində iştirak edən prokurorluq və hakim heyətinin adlarının əksini tapması hər şeyi açıq şəkildə ortaya qoyur.

### AZƏRBAYCAN UKRAYNA DEYİL

O da məlumdur ki, bir neçə aydan sonra Ağ Evin yeni sahibini müəyyənləşdirəcək seçkilər hazırda ABŞ-nin dünya siyasətinə də ciddi təsir edir. Hakimiyyət uğrunda mübarizə aparanları isə qaynar nöqtələrdə müharibə fəlakəti ilə üzləşənlərin taleyi o dərəcədə də narahat etmir. Əksinə, Vaşinqtonun maraqlarına xidmət edən yaşanan bu faciələr daxili siyasi mübarizədə bir vasitədir. Biz bunu aylardır böyük güclərin hərbi poliqonuna və əzələ nümayişi meydanına çevrilmiş Ukraynaya hərbi yardımın göstərilməsi oyununun timsalında da müşahidə edirik. Lakin bir fakt var ki, Azərbaycan Ukrayna deyil. Dövlətimizin ali rəhbərliyinin siyasi iradəsi və qətiyyəti, zəngin təcrübəsi Azərbaycan üzərindən qurulan bütün məkrli oyunların əvvəlcədən iflasa məhkum olacağını şərtləndirən başlıca amildir. İstər Paris, Brüssel, istərsə də Vaşinqton - bu oyunu quranların kimliyi rəsmi Bakı üçün elə də böyük fərq etmir...

# QƏRBİN MƏRKƏZİ ASİYA PLANI



Region ölkələri arasında 30 il ən aşağı səviyyədə olan əməkdaşlıq Özbəkistandakı hakimiyyət dəyişikliyindən sonra dərinləşməyə başlayıb. Şavkat Mirziyoyevin prezidentliyi dövründə irimiqyaslı əməkdaşlıq proqramlarına imza atılıb. Yaxın gələcəkdə region Qərb, Çin və ABŞ-nin rəqabət məkanına çevriləcək.



AZƏR NURİYEV

Uzun illər Rusiyanın ciddi siyasi, iqtisadi asılılığında olan Mərkəzi Asiya dövlətləri bu vəziyyətə son qoymaq istiqamətində ciddi addımlar atırlar. Daha çox da iqtisadi sahədə. Region ölkələrinin son illər aktivləşdiyi təşkilatlardan biri şübhəsiz ki, Türk Dövlətləri Təşkilatıdır.

### REGİON RUSİYA ASILILIĞINDAN QURTULMAĞA ÇALIŞIR

30 il ən aşağı həddə olan bu əməkdaşlıq Özbəkistanda hakimiyyət dəyişikliyindən sonra daha da güclənib. Şavkat Mirziyoyevin prezidentliyi dövründə irimiqyaslı əməkdaşlıq proqramlarına imza atılıb. Azərbaycanın haqq mübarizəsində ona dəstək verilib. Hətta işğaldan azad olunan torpaqlarda məktəb inşası həyata keçirib. Özbəkistan hazırda tək Azərbaycanla deyil, ABŞ, Avropa ölkələri ilə də iqtisadi, siyasi əlaqələri genişləndirir. Qazaxıstana gəldikdə, keçmiş prezident Nursultan Nazarbayev dövründən başlayan çoxqütblü siyasət hazırkı prezident Kasım-Jomart Tokayevin dövründə də davam etdirilir. Türkmənistan isə neytrallığını qoruyub saxlamağa çalışır, ənənəvi siyasətə üstünlük verməkdədir. Qırğızıstan daha irəli gedərək ABŞ və Avropa dövlətləri ilə əməkdaşlığı genişləndirir. O ki qaldı Tacikistana, türkdilli dövlət olmasa da, TDT-nin toplantılarına qatılır, Rusiya asılılığından qurtulmağa çalışır.

Bir fövqəldövlət var ki, Mərkəzi Asiya ölkələrinin hər birində nüfuza malikdir və görünən də odur ki, bu, hələ uzun illər belə olacaq. Söhbət təbii ki, Çindən gedir. Pekin region ölkələrini iqtisadi asılılıqda saxlamaqla yanaşı, çoxmilyardlıq investisiya layihələri də həyata keçirir.

### İKİTƏRƏFLİ STRATEJİ TƏRƏFDAŞLIQ ANLAŞMALARI

Bütün bunların fonunda region ölkələri arasında sıx əməkdaşlıq, qarşılıqlı səfərlər artıb. Həftənin əvvəli Özbəkistan prezidenti Şavkat Mirziyoyev Düşənbəyə səfər edib və burada Tacikistan lideri Emoməli Rəhmonla müttəfiqlik münasibətləri haqqında tarixi müqavilə, iqtisadiyyat, enerji və mədəniyyət sahələrində tərəfdaşlığın genişləndirilməsinə dair 28 sənəd imzalayıb. “Özbəkistan üçün Tacikistan ən yaxın, ən etibarlı və zamanın sınağından keçmiş strateji tərəfdaşdır. Qardaş özbək və tacik xalqlarını çoxəsrlik möhkəm dostluq telləri qırılmaz şəkildə birləşdirir. Bizi ortaq tarix, mədəni-mənəvi dəyərlər, ənənələr və adətlər birləşdirir”, - deyə Şavkat Mirziyoyev Emoməli Rəhmonla danışıqların yekununda bildirib.



Dövlət başçıları uzun müddətdir ki, iki ölkə arasında münasibətlərdə əngəl törədən Tacikistandakı Roqun SES mövzusunu gündəmə gətirməyiblər. Baxmayaraq ki, Düşənbə layihəni başa çatdırmaq məqsədilə investisiya cəlb etmək üçün bütün imkanlardan istifadə edir.

Özbəkistan Qazaxıstanla da eyni cür müttəfiqlik münasibətlərinə malikdir.

Bu yaxınlarda Astanada Qazaxıstan və Qırğızıstanın prezidentləri Kasım-Jomart Tokayev və Sadır Japarov arasında danışıqlar aparılıb və bu, müttəfiqlik əlaqələrinin dərinləşdirilməsinə, genişləndirilməsinə dair oxşar sazişin imzalanması ilə yekunlaşıb. Ola bilsin ki, digər Mərkəzi Asiya ölkələri arasında da oxşar müttəfiqlik münasibətləri yaransın. Məsələn, Bişkek artıq Daşkəndə oxşar müqaviləni imzalamağı təklif edib. Bütün sərhəd məsələləri həll olunandan və birgə sərhəd haqqında müvafiq saziş imzalanandan sonra Qırğızıstan və Tacikistanın müttəfiqlik münasibətləri qurmasına heç nə mane olmayacaq.

## KÖLGƏDƏ QALAN MÜQAVİLƏ

Serdar Aitakov bildirib ki, Mərkəzi Asiya ölkələri arasında ikitərəfli münasibətlərin dinamik inkişafı fonunda 2022-ci ilin iyulunda Astananın təşəbbüsü ilə imzalanmış XXI əsrdə Mərkəzi Asiyanın inkişafı naminə dostluq, mehriban qonşuluq və əməkdaşlıq haqqında Müqavilə kölgədə qalır. Bu saziş işləmir və onun həyata keçirilməsi perspektivi yoxdur.

Ekspertin fikrincə, bütün bunlar belə qənaətə gəlməyə imkan verir ki, ABŞ-nin qızğın şəkildə dəstəklədiyi beş ölkə formatında regional inteqrasiyadan danışmağa ehtiyac yoxdur. Yalnız ikitərəfli əlaqələrin tamamilə müsbət və mütərəqqi inkişafını qeyd etmək olar.

Regionda əməkdaşlığı müəyyən edən çoxtərəfli formatlar deyil, bu əlaqələr kompleksidir. Məsələn, əsl ikitərəfli əlaqələrin maksimumu bütün digər Mərkəzi Asiya ölkələri üçün ən etibarlı ağırlıq mərkəzinə çevrilən Özbəkistan ətrafında cəmləşib.

Beləliklə, regionda çox ciddi proseslər yaşanır. Yaxın gələcəkdə region Qərb, Çin və ABŞ-nin rəqabət məkanına çevriləcək.

## YENİ REGİONAL BİRLİK İDEYASI GERÇƏKLƏŞƏCƏKMİ?

Qərb, o cümlədən ABŞ də Mərkəzi Asiyaya sürətlə inteqrasiya etməyə çalışır. Hətta bu qüvvələrin region ölkələrinin yeni birliyinin yaradılmasına çalışdığı deyilir. Lakin ekspertlər hesab edirlər ki, regional birliyin yaradılması barədə danışmaq hələ tezdir. Bir məsələ də var ki, 2018-ci ildən keçirilən Mərkəzi Asiya dövlət başçılarının qeyri-rəsmi sammiti, yaxud, dövlət başçılarının məşvərətçi görüşləri ümumi problemlərin həllinə imkan yaradır. Bu il altıncı məşvərət görüşü Qazaxıstanda baş tutacaq. Türkmənistanın regional inteqrasiya proseslərində iştirakına gəlincə, bu, bir sıra obyektiv və subyektiv amillərlə məhdudlaşır. Mərkəzi Asiya üzrə ekspert Serdar Aitakov hesab edir ki, Aşqabad hakimiyyəti fövqəlmilli yurisdiksiyaya malik və milli qanunlardan üstün olan belə mexanizmlər (beynəlxalq hüquq) yaratmaqdan və bu mexanizmlərdə iştirak etməkdən çəkinir. Türkmənistan ÜTT-yə üzv olmaq çərçivəsindəki danışıqlarda belə müşahidəçi statusundan kənara çıxmayıb: “Eyni məsafə istisnasız olaraq bütün inteqrasiya layihələrində, istər siyasi (MDB, Türk Dövlətləri Təşkilatı), istərsə də TRASEKA kimi iqtisadi, logistika sahəsində müşahidə oluna bilər”.



SƏNƏTKAR Kaspi 27 APREL ŞƏNBƏ 2024 9

CANLI ƏFSANƏ, XALQ ARTİSTİ NATƏVAN ŞEYXOVA İLƏ ÇOX MARAQLI NOSTALJİ SÖHBƏT

# "ÇOX XOŞBƏXTƏM Kİ, HƏYATIM BELƏ KEÇİB"





SÖHBƏTLƏŞDİ

Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

**Xalq artisti Natəvan Şeyxova:** "Mən müğənni, ana, həyat yoldaşıyam. Tələbələrim üçün pis müəllim deyiləm. Heç kəsin könlünü qırmıram. Buna görə fikirləşirəm ki, xoşbəxt insanam..."

Xalq artisti Natəvan Şeyxova ilə müsahibəmiz üçün görüş yerini Rəşid Behbudov adına Dövlət Mahnı Teatrını seçməyimiz təsadüfi olmadı. 60-70-ci illərin tanınmış estrada müğənnisinin yaradıcılığı bu səhnə ilə də bağlı olub. 56 il bundan öncə fəaliyyətə başlayan teatrın ilk konserti isə aprel ayına təsadüf edib.

Natəvan xanım "Kaspi"yə müsahibəsində o dövrün görkəmli sənətkarlarını, musiqi mühitini yada saldı.

## SONUNCU MOGİKANLAR

● **Dövlət Mahnı Teatrında çalışdığınız illəri necə xatırlayırsınız?**

● Mahnı Teatrı həm mənim, həm də bizim ölkənin həyatında böyük rol oynayıb. Bu teatrı görkəmli müğənni Rəşid Behbudov yaratmışdı. Onun vaxtında teatr çiçəklənmişdi. Mən o zaman Azərbaycan Dövlət Estrada Orkestrində işləyirdim. O orkestrə də həmçinin görkəmli bəstəkar, SSRİ Xalq artisti Rauf Hacıyev rəhbərlik edirdi. Bu orkestrdə mən 15 il çalışdım və bütün SSRİ-ni qarış-qarış gəzdik. Hər yerdə bizi anşlaqla qarşılayırdılar. 60-cı illərin sonu və 70-ci illərin əvvəlləri idi. Moskvada, Kremlin Qurultaylar sarayında Azərbaycan Mədəniyyət günləri keçirilirdi. Həmin konsertdə Rəşid Behbudovun orkestri ilə yanaşı, bizim orkestr də iştirak edirdi. O cümlədən, bizim məşhur musiqiçilər və müğənnilər iştirakçılar sırasında idi. Rəşid Behbudov bizim orkestrin ifası ilə tanış idi. Konsertdən sonra mənə və həyat yoldaşım, saksafon ifaçısı Rafiq Seyidzadəyə yaxınlaşıb: "Dostlar, gəlin, mənim teatrımda işləyin", - deyə bizi dəvət etdi. Rauf Hacıyev bu məsələyə qısqanclıqla yanaşdı. O vaxt bizim orkestrdə Oqtay Ağayev, məşhur "Qaya" ansamblı işləyirdi. Biz çox gənc idik. Tez-tez qastrollara gedirdik. Ölkənin musiqi həyatı çox qaynar və cəlbedici idi. Öz orkestrimizdən ayrılmaq bizə çətin idi. Ona görə orkestri qoyub gedə bilmədik.

● **Bəs sonradan Estrada Orkestrinin taleyi necə oldu?**

● İllər keçdi... 1975-ci ildə çalışdığımız orkestr dağıldı. Rauf Hacıyev bir müddət mədəniyyət naziri işlədi, sonra Əlcəzairə getdi. Ondan sonra orkestr bir müddət mövcud oldu, amma sonda tədricən dağıldı. Orkestrin üzvlərindən Filarmoniyaya, "Azkonsert"ə, televiziyaya gedənlər oldu. O zaman Sovet İttifaqında üç belə orkestr vardı və bizimki hamısından peşəkar idi. Təəssüf ki, belə bir orkestr dağıldı. İndi orkestrin üzvlərindən demək olar ki, heç kim qalmayıb. Lütfiyar İmanov, Oqtay Ağayev, Zaur Nurullayev yoxdur artıq. Hərdən deyirəm ki, biz artıq sonuncu mogikanlarıq...

● **Orkestr dağılandan sonra taleyinizi Mahnı Teatrı ilə bağladınız?**

● Rəşid Behbudov dünyasını dəyişəndən sonra teatra yeni üzvlər yığmağa başladılar. Yeni qrupu caz ustası Salman Qənbərov yaratdı. O, bizi də teatra işləməyə dəvət etdi. Mən razı oldum. Mənimlə orkestrdə işləyən Oqtay Ağayev, Zaur Nurullayev da yeni orkestrdə işləməyə gəldilər. Həmçinin Rəşid Behbudovun vaxtında yaranan rəqs ansamblı, müğənni Elxan Əhədzadə və başqaları da teatrda çalışırdı. Biz konsertlər verir, başqa respublikalara qastrollara gedirdik. Sonra Azər Zeynalov orkestrə qoşuldu. Mən teatrda üç il işlədim. Sonra məni pedaqoq kimi Musiqi Kollecinə və Konservatoriyaya dəvət etdilər. İş elə gətirdi ki, 2002-ci ildə mənim səhnə fəaliyyətimin 35 illiyi bu teatrın səhnəsində keçirildi. Sonra Rəşid Behbudovun abidəsi teatrın qarşısında qoyuldu. Abidəni Prezident İlham Əliyevlə Birinci xanım Mehriban xanım Əliyeva açdı. Axşam keçirilən konsertdə artıq başqa ifaçılar idi. Bir neçə nəsil dəyişib. Əsas odur ki, bu teatr yaşayır. Bu səhnədə Rəşid Behbudovun ruhu və aurası qalır. Mənim burada çalışmağımdan 30 il keçir. Amma burada hər şey mənə doğmadır. Qapıdan içəri girəndə hər küncə, hər əşyaya diqqətlə baxdım. Burada çalışdığım illər, ünsiyyətdə olduğum insanlar çox gözəl idi. O zaman konsertlərə təkcə müğənnilərə görə gəlmirdilər, həm də bu məbədin adına görə gəlirdilər. Bu teatrda həmişə anşlaq olurdu. Maraqlı proqramlar təqdim edilir, görkəmli müğənnilər oxuyurdu.

> *"Bəzən soruşurlar, niyə görünmürsən, səni ekranlarda yenidən görmək, mahnılarını eşitmək istəyirik... Həmişə ekranlarda olmaq olmaz. Hər müğənni özü hiss etməlidir ki, artıq getmək vaxtıdır."*

## O QƏDƏR UNUDULMAZ XATİRƏLƏR VAR Kİ...

● **Çox maraqlı dövrdə və görkəmli sənətkarlarla çalışmısınız. Elə bu xatirələr yetər...**

● Biz ilk növbədə korifeyləri görmüşük. Konservatoriyada oxuyanda Cövdət Hacıyev rektor idi. Fikrət Əmirov, Süleyman Ələsgərov, Qara Qarayev, Cahangir Cahangirov, Rauf Hacıyev sağ idilər. Biz onlarla tanış idik. Rafiq Filarmoniyanın direktoru olanda onların hamısı sağ idi. Biz daim ünsiyyətdə idik. Mən konsert bölməsində kimlərlə işləməmişəm? Şövkət Ələkbərova, Sara Qədimova, Tükəzban İsmayılova, Əbülfət Əliyev, Rübabə Muradova, Lütfiyar İmanov, Mirzə Babayev, Nəzakət Məmmədova, tarzən Hacı Məmmədov... O zaman mən, Akif İslamzadə, İlhamə Quliyeva gənc idik. Tez-tez bayram konsertləri keçirilirdi. Zavod və fabriklərdə, rayonlarda əməkçi insanlar qarşısında konsertlər təşkil olunurdu. "Təşviqat qatarı" vardı. Mədəniyyət və incəsənət adamları bu tədbirlərdə iştirak edirdi. Biz hamımız o səfərlərdə iştirak edirdilər. Bir rayonda konsert verdikdən sonra qatarla digər bir rayona gedirdik. Onda yaşlı nəsil bizə çox diqqət və sevgi ilə yanaşırdı. Biz də onlara hörmət edirdik. Nəsillər arasında ünsiyyət vardı. O nəsil artıq getdi. Onda telekanal bir dənə idi. Getdiyimiz rayonlarda böyük sevgi görürdük. Adamlar bizi tanıyır, arxamızca gəzir, evlərinə dəvət edirdilər.

Mən xaricdə Azərbaycanın dörd Mədəniyyət və İncəsənət ongünlüyündə iştirak etmişəm. Həmin dekadalarda görkəmli incəsənət və mədəniyyət xadimləri ilə ünsiyyətdə olmuşam. Onlarla bağlı o qədər unudulmaz xatirələrimiz var ki, günlərlə danışsam bitməz...

## ƏSAS ODUR Kİ, ÖZ İŞİNİ SEVƏSƏN

● **Siz uşaqlıqda aktrisa olmaq istəyirdiniz. 13 yaşında da kinoya çəkildiniz. Amma müğənni oldunuz. Sizcə, səhnə kinolentdən daha cəlbedicidir?**

● Mən "Onun böyük ürəyi" filmində Lalə roluna çəkiləndə uşaq idim. Hətta indi çox şeyi xatırlamıram. O filmdə çox məşhur aktyorlar çəkilib. İndi də baxanda görürsən ki, filmin bütün heyəti görkəmli sənətkarlardan ibarətdir. Sonra "Arşın mal alan"da Asya roluna sınaq çəkilişinə dəvət etdilər. Amma sonra rejissor çağırmadı. Uşaqlıqdan yaxşı səsim vardı, ona görə müğənni oldum. Aktrisa olmadığıma görə qətiyyən təəssüflənmədim. Səhnədə canlı oxumaq tamam fərqli işdir. Bizim hər konsertimiz möhtəşəm olurdu. Onda heç bir fonoqram yox idi. Elə o vaxtdan səhnə mənim həyatımdır. Əsas odur ki, öz işini, peşəni sevəsən. Mən oxuduğum bütün mahnıları sevmişəm. Yoxsa oxuya bilməzdim. Müğənnilər var ki, "təki mahnı olsun və oxusunlar", - deyə düşünürlər. Mən belə bacarmazdım. Yadımdadır ki, Rəşid Behbudov hər mahnısı üzərində çox işləyərdi. Bir mahnının ərsəyə gəlməsi bəzən bir aydan çox çəkirdi. Hər mahnıya bir əsər kimi yanaşırdı, heç bir detalı gözdən qaçırmırdı. Bu, əsl ustalıq idi. Ona görə onu dünyanın hər yerində sevir, əl üstündə gəzdirirdilər. İndi sənətə belə yanaşma yoxdur.

## İNDİ O BƏSTƏKARLAR YOXDUR...

● **Bəs oxumaq üçün, mahnılarınız üçün darıxmırsınız?**

● Mən indi də hərdən oxuyuram. Bəzən televiziyaya və radioya dəvət edirlər. Bilirsinizmi, bizim üçün yazan bəstəkarlar da artıq dünyadan köçüb. Rauf Hacıyev, Emin Sabitoğlu, Oqtay Kazımı, Elza İbrahimova... Onlar məhz bizim üçün yazırdılar. Biz bəstəkarlarla bir-birimizin evinə gedib gəlirdik. Hər mahnının yaranması uzun bir proses olurdu. Onda mahnılar satılmırdı. Bəstəkarlar bir neçə mahnı təqdim edirdilər. Mən ürəyimə yaxın olan mahnını seçirdim. Sonra bir yerdə hazırlayırdıq, mən də, o da istədiyimizi əlavə edirdik. Beləcə bizim mahnı yaranırdı. Sonra o mahnılar həqiqətən sevilirdi. İndi artıq o bəstəkarlar yoxdur. Gənclər başqa cür yazırlar. O mahnılar artıq mənim tərzim deyil.

● **Bəs Rafiq Seyidzadə necə, saksofonunu ifa edirmi?**

● Rafiq daha çıxış etmir. Hərdən telekanallara dəvət edirlər, gedir, danışır... Bəzən bir müddət saksofonunu əlinə almır. Hərdən də götürür, ifa edir və elə fikirləşirsən ki, bir daha yerə qoymayacaq. Rafiq orkestr dağılandan sonra 12 il Filarmoniyanın direktoru kimi çalışdı. O, həmçinin Milli Məclisdə işləyib. Həmişə deyir ki, mən vəzifədə də işləmişəm, amma nə vaxt saksofonu əlimə alıram, qalan şeylər boşdur, bu, mənim həyatda əsas dostumdur. Bu, sənət sevgisi, peşəkarlıqdır.





Fotolar: Rüfət Mikayılov/Global Media Group

## YAŞ ÖZ İŞİNİ GÖRÜR...

● **"Vaxtında səhnədən getmək..." - bu fikri qəbul edənlər də var, etməyənlər də. Siz necə düşünürsünüz?**

● Mən də elə hesab edirəm: hər şeyin öz vaxtı var. Səhnə gözəllik, gənclik və əlbəttə, peşəkarlıq istəyir. Yaşa dolduqca səs bəzən sözə qulaq asmır. Sən özün özünü də xoşlamırsan. İnsanların yaddaşında əvvəllər göründüyün kimi qalmaq istəyirsən. Bəzən soruşurlar, niyə görünmürsən, səni ekranlarda yenidən görmək, mahnılarını eşitmək istəyirik... Həmişə ekranlarda olmaq olmaz. Hər müğənni özü hiss etməlidir ki, artıq getmək vaxtıdır.

● **Amma opera ifaçıları elə düşünmürlər, nümunələr çoxdur...**

● Əgər səs sənə tabe olursa, onda uzun vaxt oxumaq olar. Xüsusən opera teatrında səslər həmişə ifaçının sözünə baxmır. Necə deyərlər, yaş öz işini görür.

Mən hazırda Konservatoriyanın professoruyam, klassik vokaldan dərs deyirəm. İstedadlı tələbələrim var. Onlardan Opera Teatrında, Musiqili Komediya Teatrında, Kapellada işləyənlər var. Orta səviyyəli tələbələr də az deyil. İndi elə bir tendensiya yaranıb ki, institutu qurtarandan sonra şou bizneslə məşğul olmaq istəyirlər. Onlar dərhal çox pul qazanmağı arzulayırlar. Bu, çox pis haldır. Onlar heç bir qastrola getmirlər. Bəzən müğənnilərimiz ABŞ-yə və ya Avropa ölkələrinə səfər edirlər. Ancaq onlar diaspor çərçivəsində konsert verirlər. Biz isə o zaman geniş auditoriya üçün oxuyurduq. Hər yerə afişalar vurulurdu. Konsertlər böyük anşlaqla keçirdi. Biz Azərbaycanı hər yerdə layiqincə təmsil edirdik.

● **Gələn il yubileyinizdir. Hərçənd qadınlar yaş söhbətini o qədər də sevmirlər...**

● (Gülür) Bu haqda düşünəndə "Doğrudanmı bu qədər yaşım var?" - deyə təəccüblənirəm. Çox xoşbəxtəm ki, həyatım belə keçib. Hərdən mənə deyirlər ki, üzünüzdə həmişə xoş ifadə, təbəssüm var. Bunun üçün xüsusi cəhdim yoxdur. Bəlkə bu, mənim tərbiyəmdən irəli gəlir. İnsanlara xoş və sevgi ilə yanaşıram. Ailədə də beləyəm - üzümdə həmişə təbəssüm var.

Mən müğənni, ana, həyat yoldaşıyam. Tələbələrim üçün pis müəllim deyiləm. Heç kəsin könlünü qırmıram. Buna görə fikirləşirəm ki, xoşbəxt insanam...





# XƏBƏRSİZ ŞİRKƏT “SAHİBİ” OLANLAR



**Bəzən hansısa vətəndaşın adına bir deyil, bir neçə şirkətin açıldığı məlum olur. Şirkət “sahibləri” isə hansısa müəssisənin “rəhbəri” olduqlarından yalnız iş işdən keçəndən, şirkətin böyük vergi borcları yarandıqdan sonra xəbər tuturlar.**

SEVİNC ABBASOVA

İki il öncə iş yoldaşından kredit götürmək üçün köməklik göstərməsini xahiş edən şəxsin başına iş gəlib. Belə ki, Kürdəmir rayon Ərəbqubalı kənd sakini Rahid Hüseynov Bakıda işləyərkən ona pul lazım olur və iş yoldaşına kredit götürmək istədiyini deyib. Rahidin iddiasına görə, tanışları onu “ASAN Xidmət” mərkəzinə apararaq sənədlərə qol çəkdiriblər. Onun sözlərinə görə, bir il sonra rayon məşğulluq mərkəzinə işsiz kimi qeydiyyata yazılmaq üçün müraciət edib. Bu zaman mərkəzdən bildirilir ki, o, işsiz deyil, adına “MERDAN” MMC adlı tikinti şirkəti açılıb. Hətta o da məlum olub ki, vətəndaşın adına 11 min manatdan çox vergi borcu yazılıb.

Əslində tez-tez sadə vətəndaşların belə hallarla üzləşdiyinin şahidi oluruq. Hətta bəzən hansısa vətəndaşın adına bir deyil, bir neçə şirkətin açıldığı da məlum olur. Şirkət “sahibləri” isə hansısa müəssisənin “rəhbəri” olduqlarını yalnız iş işdən keçəndən sonra, şirkətin böyük vergi borcları yarandıqda xəbər tuturlar. Maraqlıdır, belə hallardan sığortalanmaq üçün hansı addımları atmalıyıq? Adımıza hər hansı şirkətin olub-olmadığını, adımızın belə işlərə qarışdırılmadığını necə müəyyən edə bilərik?

### VƏTƏNDAŞ İKİ YOLLA ALDADILIR

Vergi məsələləri üzrə ekspert Emin Səttarov bildirib ki, vətəndaşın xəbəri olmadan adına hansısa şirkətin açılması iki yolla mümkündür: “Bununla bağlı şəxs bütün səlahiyyətlərini başqa şəxsə etibarnamə ilə ötürməlidir, ya da özünə məxsus “Asan İmza” və vergi sertifikatını kiməsə verməlidir. Təcrübə göstərir ki, adətən şəxsdən notariusda bütün səlahiyyətlərinin icrası üçün etibarnamə alınır. Bu etibarnamə ilə onun adından MMC yaratmaq, təsis qərarını imzalamaq, vergi orqanına ərizə təqdim etmək mümkündür. Eyni zamanda, vətəndaşın adına olan “Asan İmza” ilə bütün əməliyyatları aparmaq olur. Çünki indi şəxsiyyət vəsiqəsi ilə şəxsin adına müəssisə yaratmaq, onu direktor təyin etmək mümkün deyil. Vətəndaşlar bu kimi hallardan sığortalanmaq istəyirlərsə, heç kimə etibarnamə və “Asan İmza” verməməlidirlər”.

Mütəxəssis onu da vurğulayıb ki, bəzən vətəndaşlar adlarına hansısa şirkətin təsis edilməsindən xəbərsiz olduqlarını bildirsələr də, bu prosesə pul qarşılığında razılıq verənlər də olur.



Emin Səttarov

## “BƏZƏN TANIŞLARI, DOSTLARI TƏRƏFİNDƏN ALDADILIRLAR”

Millət vəkili Vüqar Bayramov deyib ki, hazırda VÖEN açmaq və şirkət yaratmaq elektron qaydada həyata keçirildiyindən vətəndaşın xəbəri olmadan adına hansısa şirkət yaratmaq texniki baxımdan mümkün deyil: “Sadəcə, bəzi vətəndaşlarımız fərqli adamların təsiri altında bu prosesdə iştirak edirlər. Yəni bəzən tanışları, dostları tərəfindən aldadılırlar. Onlar prosesdə iştirak edirlər, amma nəyə imza atdıqlarını, şirkət yaratdıqlarını bilmirlər. Belə hallarda mütləq məhkəməyə və Dövlət Vergi Xidmətinə müraciət etmək lazımdır”.



Vüqar Bayramov

Foto: Firudin Salimov/Global Media Group

## SÜBUTETMƏ İMKANI HANSI HALDA ÇƏTİNLƏŞİR?

Hüquqşünas Əkrəm Həsənov isə hesab edir ki, vətəndaşın başqa bir şəxsə ümumi etibarnamə verməsi doğru addım deyil: “Başqasının adına onun xəbəri olmadan şirkət təsis etmək dələduzluq faktıdır. Şirkətin formal sahibi dələduzluqla üzləşdiyini öyrəndiyi təqdirdə, ilkin olaraq “Asan İmza”dan istifadə imkanını məhdudlaşdırmalı, verdiyi etibarnamələri ləğv etməli və bu barədə vergi orqanına məlumat verməlidir”.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən bildirilib ki, vətəndaşlar sahibkarlıq fəaliyyəti üzrə səlahiyyətlərini üçüncü şəxslərə həvalə edərkən diqqətli olmalıdırlar və özlərinə aid elektron imzadan digər şəxslərin istifadə etməsinə şərait yaratmamalıdırlar. Xidmətdən vurğulanıb ki, qanunvericiliyə əsasən, elektron imza yalnız öz sahibinə məxsusdur: “Elektron imza sahibi onun qorunmasına cavabdehdir və digər şəxs tərəfindən istifadəsinə yol verməməlidir. Vətəndaşlar verdikləri etibarnamə əsasında onların adına alınmış elektron imza ilə təsis olunan hüquqi şəxslərin yaranmasına və hüquqi nəticələrinə görə məsuliyyət daşıyırlar. Vətəndaşlara sahibkarlıq fəaliyyəti niyyəti olmadan vergi qeydiyyatına alınmamaq (müəssisə təsis etmək və ya VÖEN əldə etmək) və başqa şəxslərin vədlərinə inanmamaq tövsiyə edilir. Əks halda, onlar vergidən yayınma sxemləri ilə cinayətkar fəaliyyət həyata keçirən şəxslərə şərait yaratmış olurlar. Bu halda gələcəkdə yaranacaq vergi öhdəliklərinə görə məsuliyyəti vətəndaş özü daşımalı olur. Qanunu bilməmək heç kimi məsuliyyətdən azad etmir”.



Əkrəm Həsənov

## ŞİRKƏT SAHİBİ OLDUĞUMUZU NECƏ MÜƏYYƏNLƏŞDİRƏ BİLƏRİK?

Xidmətdən bildirilib ki, vətəndaşın adına şirkətin mövcudluğunu yoxlamaq üçün “Asan İmza” nömrəsi özündədirsə, elektron kabinetdən hər hansı şirkətdə qanuni təmsilçi olub-olmadığını, rəsmi alqı-satqı əməliyyatlarını görə bilər. “Asan İmza” nömrəsi olmadan isə Dövlət Vergi Xidmətinin saytında FİN kod və şəxsin öz adına olan mobil nömrə vasitəsilə şəxsi kabinetə daxil olmaqla oraya hər hansı təsis sənədlərinin gəlib-gəlmədiyini görmək olar. Digər bir üsul isə şəxsiyyət vəsiqəsi ilə Dövlət Vergi Xidmətinin Vergi ödəyicilərinə xidmət mərkəzlərinə yaxınlaşaraq bunu yoxlamaqdır.



Qurumdan qeyd edilib ki, vətəndaş adına şirkət açıldığını müəyyən edən zaman ilk olaraq Dövlət Vergi Xidmətinin xidmət mərkəzlərinə yaxınlaşaraq “Asan İmza” ilə bağlı əməliyyatları dayandırmalıdır.

# MÖVSÜMÜ OLSA DA, QİYMƏTİ UCUZLAŞMIR



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Mövsümü olsa da, bazarlarda pomidor və xiyarın qiymətində gözlənilən ucuzlaşmanı müşahidə edə bilmirik. Hazırda bazarlarda üç manatdan aşağı pomidor, iki manatdan daha ucuz xiyar tapmaq mümkün deyil. Bəs nə üçün pomidor və xiyarın qiyməti hələ də əl yandırır?



Pomidorun və xiyarın mövsümü başlayıb, deyə bilərik. Lakin bazarlarda əl yandıran qiymətlər səbəbindən bu tərəvəzlərə yaxınlaşmaq mümkün deyil. Fermerlər hesab edirlər ki, qarşıdakı müddətdə xiyar ucuzlaşsa da, pomidor ucuzlaşmayacaq.

### QİYMƏTİ TƏLƏB-TƏKLİF MÜƏYYƏNLƏŞDİRİR

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Vüqar Hüseynovun "Kaspi" qəzetinə verdiyi məlumata görə, qiymətləri bazarda tələb və təklif müəyyənləşdirir. Tərəvəzin kütləvi şəkildə istehsalı, təbii məhsulların bazara çıxarılması may ayından başlayır. Bundan sonra qiymətlərdə sabitləşməni görə bilərik.

### YERLİ POMİDOR BAZARA İYUN AYINDA ÇIXARILACAQ

Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu Publik hüquqi şəxsin İdarə Heyətinin sədri Elmar Allahverdiyev də bildirdi ki, mövsüm başlayır. Lakin havaların dəyişkən keçməsi məhsulun bazara çıxışına öz təsirini göstərir: "Hər zaman bu dövr qış mövsümünün yekunu, yay mövsümünün başlanğıcıdır. Artıq may ayında bir çox tərəvəzlər yetişəcək. İyun ayında açıq sahələrdə yetişdirilən pomidorlar da bazara çıxarılacaq. Bu səbəbdən mövsüm başlayır deyə bilərik. Bir çox tərəvəzlər fevralın əvvəlindən əkilib. Onların vegetasiyasının orta müddətidir. Buna qlobal iqlim dəyişiklikləri də təsir göstərir. Fevral ayında havalar isti keçdi. Bu iqlim şəraiti bitkilərə də mənfi təsirini göstərir".

E.Allahverdiyevin fikrincə, bu tərəvəzlərin ucuzlaşmasını görmək üçün onların kütləvi yetişdirildiyi dövrü gözləmək daha doğru olar: "Maydan etibarən bir çox tərəvəzlər bazara daha çox daxil olduğundan, qiymətlər də daha ucuz olur".

## XİYAR UCUZLAŞSA DA, POMİDOR BAHALAŞACAQ

Fermerin sözlərinə görə, bahalaşma bir neçə gün də davam edəcək, lakin may ayında artıq qiymət enmələri müşahidə edə biləcəyik: "Mayın əvvəllərində xiyarın qiyməti düşəcək. Ayın ilk ongünlüyündə pomidorun qiyməti qalxa bilər. Amma ondan sonra pomidorun qiymətində də eniş müşahidə ediləcək. Yaxın günlərdə xiyarın orta qiyməti 1,2 manat olacaq. Pomidorun qiyməti isə əksinə, bahalaşacaq. Yaxın günlərdə Salyan pomidorunun qiyməti dörd manatın üzərinə qalxacaq, Bakı pomidoru isə ondan da baha satılacaq".




**Fotolar:** Rufat Mikayilov/Global Media Group

## SU ÇATIŞMAZLIĞI DA QİYMƏTƏ TƏSİR GÖSTƏRİR

İqtisadçı Rauf Qarayev isə qeyd etdi ki, hazırda tərəvəzlərin baha olmasına təsir edən amillər su səviyyəsinin aşağı olması, suvarmanın düzgün həyata keçirilməməsidir: "Havaya baxdıqda görürük ki, sabit keçmir. Yalnız son bir həftədir havalar istiləşib, yəni 30 dərəcə həddindədir. Bundan əlavə, suvarma sistemində də çətinliklər mövcuddur. Qonşu ölkələrdə yağıntılar çox olduğundan çaylar öz mənbəyindən çıxıb, bizdə isə belə hallar müşahidə olunmur. Deməli, lazımi dərəcədə yağıntı olmayıb ki, çaylar bol sulu deyil. Yağıntının normadan artıq və ya az olması, hər ikisi kənd təsərrüfatı üçün məqbul hesab edilmir. Sululuq çox olanda sel daşqınlarına və əkin sahələrinin məhvinə, az olması isə quraqlığa və məhsulun az olmasına gətirib çıxarır. Su hövzələrin az olması və sudan qənaətlə istifadə edilməməsi, əkin sahələrinə bərabər miqdarda su verilməməsi məhsulların ucuzlaşmasına imkan vermir. Hesab edirəm ki, may ayının ortalarından etibarən bazarda bu məhsulların qiyməti sabitləşəcək".

## Yeni çıxan məhsullar tələbatımızı ödəmir

Fermer Anar Abbasov bu il müşahidə olunan bahalaşmanı bəzi amillərlə əlaqələndirdi: "Xiyar keçən il bol əkilmişdi. Fermerlər ziyana düşdülər. Keçən il həmçinin pomidor baha olduğu üçün bu il daha az əkiblər. İstixana əkinində birinci və ikinci dövriyyə əkinləri olur. Hazırda birinci əkin dövriyyəsi bitib, ikinci dövriyyənin əkinləri isə yeni-yeni çıxmağa başlayır. Onlar da hələ çox azdır. Yenicə çıxan məhsullar isə ölkəmizin tələbatını ödəmək potensialında deyil. Həmçinin Rusiyaya da pomidor göndərilir. Çünki təkcə İran Rusiyanı pomidor ilə təmin edə bilmir".



Vüqar Hüseynov
Elmar Allahverdiyev
Rauf Qarayev

Kaspi ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Sevinc Abbasova, İlhamə Əbülfət, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 944
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# SOCAR İLƏ DVX ARASINDA MEMORANDUM İMZALANIB

**Sənəd hər iki dövlət qurumunun intensiv əməkdaşlıq münasibəti qurmaqla əməkdaşların bilik və bacarıqlarının inkişaf etdirilməsi istiqamətində təcrübə mübadiləsini nəzərdə tutur.**

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (DVX) arasında təlim və inkişaf sahəsi üzrə Əməkdaşlıq haqqında Memorandum imzalanıb. Bu barədə "Report" SOCAR və DVX-nın birgə yaydığı məlumata istinadən xəbər verir. Məlumatda deyilir ki, sənəd hər iki dövlət qurumunun intensiv əməkdaşlıq münasibəti qurmaqla əməkdaşların bilik və bacarıqlarının inkişaf etdirilməsi istiqamətində təcrübə mübadiləsini nəzərdə tutur. Memorandum tərəflərin birgə və ya SOCAR-a aid müxtəlif mövzularda keçirilməsi nəzərdə tutulan təlim və inkişaf tədbirlərinin DVX-nin Şamaxı rayonunda yerləşən Tədris Mərkəzində təşkilini, qurumların əməkdaşlarının qarşılıqlı təlimlərdə iştirakını, SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin (TTSİ) müvafiq infrastrukturunun DVX tərəfindən istifadəsini və TTSİ təlimlərində DVX əməkdaşlarının müvafiq şərtlərlə iştirakını, elektron təlim materiallarının qarşılıqlı mübadiləsi və digər məsələləri əhatə edir.



**ƏMƏKDAŞLIQ UZUN MÜDDƏT DAVAM ETDİRİLƏCƏK**

Əməkdaşlıq haqqında Memorandumu DVX-nın rəis müavini Samirə Musayeva və SOCAR-ın vitse-prezidenti Ziba Mustafayeva imzalayıblar.

Tədbirdə çıxış edən Z. Mustafayeva, S. Musayeva, SOCAR-ın kommunikasiya məsələləri üzrə icraçı direktoru Aygün Hüseynova, DVX İnsan resursları baş idarəsinin rəisi Aytən Kərimova, DVX rəisinin müşaviri Sərxan Həşimov əməkdaşlıq istiqamətlərinin əhəmiyyətindən danışıb və kommunikasiyanın qurulmasından məmnunluq ifadə ediblər.

Qeyd edək ki, əməkdaşlığın uzun müddət davam etdirilməsi və gələcəkdə insan kapitalının davamlı inkişafı istiqamətində əhatə dairəsinin daha da genişləndirilməsi nəzərdə tutulub.



## Genişzolaqlı internetin sürəti 38 % artıb

Bu ilin mart ayında Azərbaycan sabit genişzolaqlı internetin orta sürətinə görə 182 ölkə arasında əvvəlki aya nisbətən 2 pillə geriləyərək 38,32 MB/S sürətlə 117-ci yerdə qərarlaşıb. "Report" "Speedtest Global Index"ə istinadən xəbər verir ki, bu, bir il əvvəlki göstərici (27,84 MB/S) ilə müqayisədə 38 % artım deməkdir.

Azərbaycan mobil internetin sürətinə görə fevral ayına nisbətən martda üç pillə irəliləyərək 50,12 MB/S sürətlə 148 ölkə arasında 56-cı olub.

Hesabat ayında Bakı şəhəri sabit genişzolaqlı internetin sürətinə görə əvvəlki aya nisbətən bir pillə irəliləyərək 195 şəhər arasında 39,90 MB/S sürətlə 134-cü yerdə qərarlaşıb. Azərbaycan paytaxtı martda mobil internetin sürətinə görə 59,78 MB/S sürətlə əvvəlki aya nisbətən üç pillə irəliləyərək 168 şəhər arasında 74-cü yerdə qərarlaşıb. Şəhərlər arasında mobil internetin sürətinə görə birinci yeri Ər-Rayyan (427,38 MB/S), sonuncu yeri Havana (5,08 MB/S) tutub.

# BAKCELL İLƏ İNNOVASİYA DÖVRÜ BAŞLAYIR

Ölkənin ən böyük özəl telekommunikasiya şirkəti olan Bakcell yeni brend kimliyini elan etdi. Bakcell-in Baş İcraçı Direktoru Klaus Müller 25 aprel 2024-cü il tarixində Bakı Konqres Mərkəzində keçirilən mətbuat konfransında bu xəbərləri jurnalistlərlə bölüşdü.

"Yeni Bakcell-in məqsədi Azərbaycanın dəyərli xalqına innovativ xidmətlər təqdim etməkdir. Yeni brend kimliyimiz zahiri görünüş, məzmun və mövqeləndirmə müstəvisində cəsarətli dəyişiklikləri əks etdirir. Bununla biz, Bakcell daxilində fəaliyyətimizin məqsədini yeni istiqamətə yönləndirəcəyik. Diqqət mərkəzimizdə sırf yeniliklər dayanacaq. Azərbaycana vacib olan və əhəmiyyət kəsb edəcək innovasiyaların gətirilməsi bundan sonra da bizim yolumuzu şimal ulduzu kimi istiqamətləndirəcək", - Klaus Müller vurğulayıb.

Belə ki, şirkətin yeni vizual həlli beş dinamik fiqurun ulduz şəklində düzüldüyü və gələcəyə yol açan bir loqonu ərsəyə gətirir. Beləliklə, Bakcell-in şimal ulduzu bəzən insanları, bəzən məkanları, əksər hallarda isə,




dəyərli anları birləşdirərək bir-birinə bağlayır. Bu innovativ dizayn Bakcell-in rəqəmsal gələcəyə sürətli sıçrayışının təcəssümüdür.

Mətbuat konfransında süni intellektlə dəstəklənən insanabənzər robot təqdim edən Bakcell şirkəti, bununla müştəriləri ilə qarşılıqlı əlaqəsi və işçi qüvvəsinin potensialını artırmaq üçün süni intellektin istifadəsini təsdiqləyib. Bakcell-in hədəfi qarşıdan gələn innovasiyalar silsiləsi vasitəsilə bütün Azərbaycan ərazisində, xüsusən də Azərbaycan üçün olduqca önəmli və dəyərli anlarla zəngin olan Qarabağda ən sürətli mobil şəbəkəni təmin edərək dəyər təkliflərini artırmaqdır.

Ötən il Bakcell şirkəti yeni brend kimliyinin konsepsiyasının hazırlanmasını Meta və Alphabet kimi beynəlxalq miqyasda tanınmış brendlərlə işləyən İspaniyanın qlobal konsaltinq şirkəti "Saffron"a həvalə edib. Bakcell inqilabi yeni innovativ yanaşmanı bütün dəyər zənciri boyunca təqdim etdi. Bakcell əsas təchizatçısı Azerconnect ilə əməkdaşlıq edir və onlar birlikdə Cisco, Huawei, Nokia, Ericsson və digərləri kimi qabaqcıl beynəlxalq təchizatçı və tərəfdaşlarla çalışırlar. Buraya həmçinin Neqsol ailəsi çərçivəsində Vodafone Ukrayna və onun tərəfdaşı Vodafone qlobal da daxildir.

Artıq bir sıra yeniliklərə start verilib. Növbəti günlərdə ChatBot və VoiceBot (Apple-ın Siri-yə bənzər məhsulu) kimi süni intellekt əsaslı danışıq assistentlərimiz müştərilərə təqdim ediləcək. Danışıq assistentlərimiz dərin öyrənmə sahəsində LLM və GPT kimi ən son nailiyyətlərlə təchiz edilmişdir.

Bakcell telefonların satışına başlayır və cihaz ilə birlikdə, yalnız Bakcell kimi bir telekommunikasiya şirkətinin təklif edə biləcəyi və olduqca əlverişli xidmət təkliflərini müştərilərə təqdim edir. Tezliklə Bakcell innovativ və hazırda Azərbaycanda mövcud olan istənilən sürətdən daha sürətli ev internet xidmətləri təqdim edəcək.

STATİSTİKAYA ƏSASƏN, ÖLKƏMİZƏ TÜRKİYƏDƏN FINDIQ İDXAL OLUNUR

# DÜNYANI BİZ TƏMİN EDİRİK, AMMA...

Azərbaycan fındıq istehsalı üzrə ixtisaslaşmış ölkələrdəndir. Hətta dünya ölkələrinə fındıq ixracında ilk sıralardayıq. Amma statistikaya əsasən, ölkəmizə Türkiyədən fındıq idxal olunur.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bu ilin yanvar-mart aylarında Türkiyədən Azərbaycana 31 min ABŞ dolları dəyərində fındıq və fındıq məhsulları idxal edilib. Bu, ötən ilin müvafiq dövrünə nisbətən 27,5 faiz çoxdur. Ölkəmiz fındıq istehsalı və ixracı üzrə dünyada ilk sıralardadır. Hazırda da müxtəlif ölkələrə keyfiyyətli fındıq ixrac edirik. Bəs özümüz əsas ixracatçılardan olduğumuz halda, Türkiyədən fındıq idxalının səbəbi nədir?

### İXRAC QARŞISINDA İDXAL ÇOX CÜZİDİR

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadənin sözlərinə görə, ölkəmizə Türkiyədən fındıq idxalının səbəbi istehsalla bağlı deyil. Çünki istehsalımız hər il artan dinamika ilə inkişaf edir: "2021-ci ildə 49 min ton, 2022-ci ildə 51 min ton, 2023-cü ildə də 75 min ton fındıq istehsal edilib. Yəni istehsalda azalma baş verməyib. İxrac ediriksə, bu o demək deyil ki, daha idxal olmayacaq. İxrac rəqəmlərimiz qarşısında idxal çox cüzi qalır".



Firdovsi Fikrətzadə

## HANSISA ŞİRKƏTİN İDXALI AJİOTAJ YARADA BİLƏR

İqtisadçı Rəşad Həsənov isə düşünür ki, xaricdən məhsul idxal edilməsi insanların seçimlərinə görə dəyişə bilər: "Nə istehsal etməyimizin fərqi yoxdur. Çünki bazar iqtisadiyyatıdır. İstehlakçı yerli məhsulu da, idxal edilmiş məhsulu da ala bilər. Bu, bazarın tələbidir. Hər məhsulun alıcısı müxtəlifdir. İdxal gələcəkdə də davam edə bilər. Qısamüddətli dövr üçün münasibət bildirmək doğru deyil. Dinamikanı izləmək üçün müəyyən dövr tələb olunur ki, trendlərin hansı istiqamətdə dəyişdiyini görək. Bəzən hansısa şirkətin bir ay, bir rüb üçün idxal-ixrac əməliyyatları göstəricilərdə əksini tapır və ajiotaja səbəb olur. Çünki bazarımız çox kiçikdir".




### QABLAŞDIRILDIQDAN SONRA YENİDƏN ÖLKƏMİZƏ GƏTİRİLİR

Ekspertin fikrincə, buna ölkəmizdə emal sənayesinin zəif olması da təsir edir: "Yerli istehsal son istehlak halına gətirilmir. Yaxud standartlara uyğun təşkil olunmur. Əksər hallarda fındıq ixracımız da Türkiyə üzərindən həyata keçirilir. Ölkəmizdən xammal şəklində Türkiyəyə göndərilir. Orada emal olunur, təmizlənir, standartlara uyğun brendləşdirilir, sonra Türkiyə məhsulu kimi bazarlara çıxır. Ola bilər ki, orada qablaşdırıldıqdan sonra yenidən ölkəmizə gətirilsin. Bu istiqamətdə müəyyən çatışmazlıqlar var".

### İSTEHSAL NORMALDIR, AMMA QİYMƏT UCUZDUR

15 ildir fındıq bağlarına qulluq edən fermer Eldəniz Doldolovun sözlərinə görə, fındıq idxalı heç bir sahibkara sərf etməz: "Fındıq istehsalında heç bir problem yoxdur. Sadəcə satışında problem yaşayırıq. Çünki qiyməti aşağıdır. İdxal edilməsi real görünmür. Çünki Türkiyədə fındıq daha bahadır. Həmçinin, bu məhsulu Azərbaycana gətirən şəxs 36 faiz ƏDV ödəməlidir. O məhsulu bura gətirib baha qiymətə satsa, bu zaman da alıcısı olmayacaq. Gətirən şəxs əgər on dollara bu məhsulu alırsa, burada 13 dollara satmalıdır. Amma heç biz o qiymətə sata bilmirik".



Rəşad Həsənov

## TÜRKİYƏ FINDIĞI ƏKİN ÜÇÜN DAHA UYĞUNDUR

E.Doldolov bildirdi ki, Türkiyədən məhsul özü gətirilməsə də, fındıq tinglərinin gətirilməsi mümkündür: "Tinglər Türkiyədən, İtaliyadan, Gürcüstandan gətirilir. Onlar təkgövdəli fındıqlardır, xüsusi sortdur, daha yağlıdır. Bir hektar üçün nəzərdə tutulan məhsuldarlığı çoxdur. Bizim yerli ağac sortlarımızı bir hektar ərazidə 100-150 ədəd əkmək olursa, həmin sortdan 660 ağac əkmək mümkündür. Təkgövdəli sort bir ildən sonra məhsul verməyə başlayır. Bizim ağaclarımız 3-4 il sonra bar gətirir. O ağacı budamaq, məhsulu yığmaq daha rahatdır. Həmin ağacın fındıqları daha ağırdır. Məhsuldarlıq bizim fındıqlarda üç tondursa, təkgövdəlidə yeddi tondur. Hətta yerli ağacları çıxarıb bu sortu əkənlər də var".

### FERMERLƏR SƏRMAYƏ YATIRMAQDAN ÇƏKİNİRLƏR

Fermerin fikrincə, əgər fındıq sahələri olanlar bağlarına bir az qulluq etsələr məhsuldarlığı daha da artırmaq mümkündür: "Azərbaycanda fındıq istehsalının daha da artması üçün bağlara qulluq edilməlidir. Amma fındıq bağlarımıza qulluq, demək olar ki, yoxdur. Bağların heç on faizinə lazım olan qulluq göstərilmir. Ona görə məhsuldarlıq aşağıdır. Məhsuldarlığı artırmaq üçün həm aqrotexniki tədbirlər görmək, həm də düzgün gübrələmə aparmaq lazımdır. Fermerlər bu işləri yerinə yetirmir. Ancaq şirkətlərin ixtiyarında olan bağlara xidmət göstərilir. Hər kəndlinin 1-2 hektar fındıq bağı var. Fermerlər ağacları payızdan sonra özləri budaya bilər, amma əziyyət çəkmək istəmirlər. Bazarda qiymətin ucuz olması səbəbindən də fermerlər bu sahəyə sərmayə yatırmaqdan çəkinirlər".

# QARABAĞIN KOLORİTİNİ YAZAN YAZIÇI



Dostları “altmışıncılar”ın ən istedadlı nümayəndələrindən biri olan yazıçı İsi Məlikzadəni xeyirxah bir insan kimi xatırlayırlar. Onun əsərləri kimi həyatda da maraqlı və baməzə insan olduğunu deyirlər.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

“İsi Məlikzadənin “Qatarda” hekayəsi əsasında çəkilən teletamaşanı hamı xatırlayır. Teletamaşa olmuş hadisə əsasında çəkilib. İsi Məlikzadə dost-tanışa danışırdı ki, “Qatarda” hekayəsindəki pinəçi-çəkməçi əslində qatarda yol gedən prokuror sərnişin olub. Öz başına gələnləri isə Sabir Mirzənin obrazında qələmə alıb. O vaxt senzura olduğu üçün prokuror obrazını qeyd edə bilməyib, onu pinəçi rolu ilə əvəzləyib. Beləcə, “Qatarda” hekayəsi, sonra onun əsasında hamının sevərək baxdığı “Qatarda” teletamaşası yaranıb”. Yazıçı, millət vəkili Aqil Abbas yaxın dostu və həmyerlisi İsi Məlikzadə haqqında doğum gününün ərəfəsində (1 May doğum tarixidir - red.) anım yazısı hazırlamaq istəyimizi bilincə söhbətə bu xatirə ilə başladı. O, bu günlərdə yazıçı dostları - Seyran Səxavət və Vaqif Bəhmənli ilə birlikdə İsi Məlikzadənin Ağcabədidəki məzarını ziyarət etdiklərini dedi: “İsi Məlikzadə Qarabağın koloritini yazan bir yazıçıdır. Bütün əsərləri koloritlidir, hamısı qeyri-adi əsərlərdir. Biz yaxın dost idik. O, yaşca məndən böyük idi. Mən onun bütün nəsil-nəcabətini tanıyıram. Atası Abbas kişi də çox ağıllı bir adam idi. Dərin yumor hissi vardı. İsinin zarafatları, yumoru da ondan gəlirdi. İsi mənim çox sevdiyim adam idi. Gözəl piano çalırdı, yaxşı da səsi vardı. Birlikdə çox yaddaqalan günlər keçirmişik”.

### ÖLÜMÜN DƏ İSİ MƏLİKZADƏ ÜÇÜN FƏRQİ YOXDUR

Millət vəkili, Xalq şairi Sabir Rüstəmxanlı bir neçə il əvvəl İsi Məlikzadə dünyasını dəyişəndə “Ölüm İsiylə zarafat elədi” adlı xatirə yazısı qələmə aldığını deyir: “İsi Məlikzadə mənim tanıdığım və sevdiyim ən səmimi, ən duzlu və çevik düşüncəli adamlardan biri idi. “Ədəbiyyat və incəsənət” qəzetinə işləməyə gəldiyim ilk günlərdən tanıyırdım onu. Əslində, “onu tanıyırdım” demək düzgün deyil, çünki İsini tanımaq həm də onun ətrafındakı bütün adamları, dostlarını, düşmənlərini, qohum-əqrəbalarını, Ağcabədidə yaşayan atası Abbas kişini və onun yaxınlarını tanımaq demək idi. Onların bir qismi İsi Məlikzadənin əsərlərinin qəhrəmanlarıdır. Bir qismi isə yazılarına düşməsə də, dilindən düşmürdü... Təəssüf ki, sağlığında rayondakı evlərinə gedə bilməmişdim, yalnız yasında görə bildim, amma, əslində, o evi və ora bağlı olanları İsi özünəməxsus yumorla, dönə-dönə o qədər gözəl təsvir eləmişdi ki, bilmədiyimiz bir tərəfi qalmamışdı. İsi yazıçıların “altmışıncılar” nəslinin ən istedadlı nümayəndələrindən biri idi. Əsərlərində həyatımıza, böyüdüyü mühitə, gördüyü dünyaya təkrarsız, qeyri-adi bir münasibət vardı. Onun gördüyünü başqası görə bilməzdi”.

## “ONU SEVƏNLƏR, ÖZÜNƏ DOST SAYANLAR ÇOX İDİ”

S.Rüstəmxanlı qeyd edir ki, İ.Məlikzadə kirayənişinlik günlərindən başlayaraq onlara gedib-gələrdi: “Onu sevənlər, onu dost sayanlar çox idi. Mən də onlardan biri idim. Bu baxımdan o, böyük istedad sahibiydi. Ən maraqlısı da bu idi ki, söhbət zamanı özü nadir hallarda gülərdi. Sözü ortaya atıb başqalarının reaksiyasını izlər və maraqlı nəticələr çıxarardı. Qəmli vaxtlarında da gözündəki gülüş çəkilməzdi. O qədər sərrast atmacaları vardı ki, anında doğulduğuna inanmaq olmurdu. Elə bilirdik, günlərlə düşünüb tapdığı fikirdir. Yaxın dostlarına, yazıçılara sataşmağı xoşlayırdı. Məsələn, Fərman Kərimzadənin onların televizorlarını “təmir” etməsini, Tofiq Bayramla görüşə getmələrini, çap üçün verdiyi povest haqqında Sabir Əhmədlinin rəy söyləməsini o qədər incə və tikanlı bir zarafatla danışardı ki, gülməkdən çənəmiz ağrıyardı. İsinin bir sıra zarafatlarını yazıya almaq mümkün deyil. Amma bəzi zarafatları da hazır bədii əsərdir; o vaxt yazmadıqlarına görə bu gün folklor şedevridir. Bu baxımdan, Əzrayılın Yazıçılar İttifaqına gəlişini təsvir edən söhbətləri bitmiş bir bədii əsərdir. Nə qədər desək də, yazıya almadı”. S.Rüstəmxanlı qeyd edir ki, İsi Məlikzadə təmiz, xeyirxah, hamıya yaxşılıq eləməyə çalışan, özünü gözə soxmağı bacarmayan, sevimli bir insan idi: “Ağcabədidəki məzarını bir neçə dəfə ziyarət etmişəm. Həmin qəbiristanlıqda qəribə bir rahatlıq duyuram. Ölüm də İsiylə zarafat elədi. Belə qəbiristanlıqda yatmağa nə var ki... Özünə sataşmağı da vardı. Bir dəfə ciddi görkəmlə demişdi: “Mən ölüm, heç belə də ad olar. Əvvəldən axıra, axırdan əvvələ - heç bir fərqi yoxdur: İsi!” Mənə elə gəlir ki, ölümün də İsi Məlikzadə üçün fərqi yoxdur. Onun sözü, əsərləri həmişə canlıdır, adı dostlarının dilindədir. Elə gün olmur ki, xatırlanmasın, o dünyadan ciddi görkəmlə baxa-baxa bizi bu dünyada güldürüb düşündürməsin...”

## “SON İŞ YERİ BİZİM JURNAL OLDU”

Tənqidçi Vaqif Yusifli İsi Məlikzadə ilə bir neçə il bir redaksiyada - “Azərbaycan” jurnalında işləyib: “Elə son iş yeri də bizim jurnal oldu. Çox koloritli bir insan idi. Onunla dəfələrlə söhbət etmişəm və mənim üçün onun əsərləri nə qədər maraqlı idisə, özü də söhbətlərində, ünsiyyətində bir o qədər maraqlıydı. Elə bil xəyalımda ayrıca “İsi Məlikzadə” povestini vərəqləyirdim onunla söhbət edəndə. İsi Məlikzadə xarakter ustası idi. Onun povestlərində yaddan çıxan, oxuduqdan sonra unudulan obrazlar nəzərə çarpmır”. V.Yusifli mərhum yazıçını son dəfə - ölümündən bir neçə gün əvvəl televiziyanın həyətində gördüyünü deyir: “Ayaq üstə dayanmışdı, rəngi də xoşuma gəlmədi, xəstə olduğunu hiss etdim. Kömək təklif elədim, dedi “yox”, Mövlud Süleymanlını görməliyəm. Və getdi. Bu, mənim xəyalımda yaratdığım “İsi Məlikzadə” povestinin son cümləsi oldu. İki-üç gündən sonra televiziyadan onun ölüm xəbərini eşitdim. 61 yaşını təzəcə keçmişdi, amma ondan sonra cəmi 11 gün yaşadı. 1995-ci il 12 mayda vəfat etdi. Bax, bu mənada İsi Məlikzadə öz vaxtsız ölən qəhrəmanlarına bənzədi”.



Aqil Abbas
Foto: Ehtiram Jabi-Global Media Group
Foto: Sabir Məmmədov Global Media Group
Sabir Rüstəmxanlı
Vaqif Yusifli

# “KİM TANINMAQ İSTƏYİR, AKTYOR OLUR”



## Ziya Ağa: “Nəzərə almaq lazımdır ki, alınan maaşla insanlar ailə dolandırır. Maaş indikindən beş dəfə artıq olsa, teatr da inkişaf edəcək, kino da”.

Bu gün teatr sanki yeni dövrünü yaşayır. Yeni dövrün öz qaydaları, teatrın isə öz qanunları var. Teatr indi inkişafının hansı mərhələsindədir? Bununla bağlı aktyor, rejissor və prodüser Ziya Ağa ilə söhbətləşdik:

**● Bu gün teatrda pafosa ehtiyac varmı?**

● Teatrda pafos, teatrallıq olmalıdır. Sadəcə, sovet və ya artıq klassikləşmiş pafos lazım deyil. Biz bəzən süni oyunla pafosu qarışdırırıq. Bunlar ayrı-ayrı şeylərdir. Mən indi buradakı kimi səmimiyyət və sürətlə səhnədə də danışsam, bu, düzgün olmaz. Bunun üçün kino var. Əgər sən çəkməçi Akif dayını yox, Şekspirin “Otello”sunu oynayırsansa, pafosun olmalıdır. Amma bu pafos süni yox, düzgün və yerində səslənməlidir. Fuad Poladovdan çox pafosla oynayan yox idi. Amma onu hamı sevirdi. Çünki insan bütün səmimiyyəti ilə oynayırdı.

**“NƏYƏ LAZIMDIR O TAMAŞA?”**

**● Dekonstruksiyalara münasibətiniz necədir?**

● Dekonstruksiya zamanı əgər rejissor və bütün heyət işi sevərək edirsə, heç kimin heç kimə nifrəti yoxdursa, sadəcə yaxşı bir iş görmək naminə birləşiblərsə bu, yaxşı iş olacaq. Bəzən deyirlər ki, klassiklərə toxunmaq olmaz. Sual çıxır. “Otello” bütdürsə, toxunmaq olmazsa, hər şey yazılan kimi olmalıdırsa, onda rejissor baxışı nəyə lazımdır? Elə aktyor əsəri oxusun, necə var, elə də oynasın. Əsərdə replikalar var, remarkalar var. Vəssalam! Yəni bir tamaşada rejissor baxışı, rejissor quruluşu yoxdursa, nəyə lazımdır o tamaşa? Həmçinin əsərlərə yeni nəfəs verilməli, lazım gəlsə yeni dövrə uyğun dekonstruksiya da olunmalıdır.

**● Teatrın inkişafı, sizcə, hansı səviyyədədir?**

● İndi dünyada teatr elə inkişaf edib ki... Bilmirsən kinoya baxırsan, yoxsa tamaşaya. Tamaşada bu boyda həqiqət olmamalıdır. Bizdə və Rusiya teatrlarında hələ də bu şərtilik qalıb. Vidadi Həsənovun bir sözü qulağımda sırğadır: “Teatrı aktyora qaytarmaq lazımdır”. Musiqi, görüntü, dekorasiya, işıq, səs effektlərinin tamaşaçıya toxunması üçün kino var. Tamaşada auditoriyaya aktyor toxunmalıdır oyunu ilə. Aktyor zalda oturan neçə yüz insanın enerjisini özünə alır, özü də ona enerji ötürür. Ən gözəl mübadilə budur.

**“BUDAQ SINACAQ, HƏR İKİSİNDƏN DƏ OLACAĞIQ”**

**● Teatrların repertuarından razısınız?**

● Bu gün hamı yeniliyə qaçır. Amma bizim hələ “Əlifba”da qalan problemlərimiz var. Qayıdıb onları düzəltməliyik. Çox sadə, düzgün dramaturji materialları götürüb, düzgün xətti olan bir tamaşa qurub, doğru oynayan aktyorlarla tamaşa dünyaya gətirməliyik. Birinci o mərhələni keçək, ondan sonra repertuarı yeniləməkdən, yeniliklər etməkdən danışarıq. Biz hələ o mərhələyə keçməmişik. Biz ölkə üzrə bu mərhələni adlamalıyıq. Həyatını buna sərf edən, əsər, roman yox, sırf teatr üçün pyes yazan dramaturqumuz yoxdur. Nə vaxt ki dramaturqumuz olar, bir-birimizi pisləyə-pisləyə yox, sevə-sevə keçərik gözəl işlər görməyə. Ondan sonra artıq kim yenilik istəsə edər, kim də istəsə klassik üslubu qoruyar. Amma kökü möhkəmlətmədən, budaqlara keçmək olmaz. Budaq sınacaq, hər ikisindən də olacağıq.




> *“Əgər bir ay tamaşadan danışırlarsa, deməli, bu tamaşa var. Ola bilər ki, lap yaxşı tamaşa oynayaq, amma o, hadisəyə çevrilməsin, heç kim ondan danışmasın.”*

**● Ümumiyyətlə, bu gün teatrlarımızda nə çatışmır?**

● Teatrlarda maaş azdır. Ən böyük problemlərdən biri budur. Obyektiv yanaşsaq, ölkədə elə teatrlar var ki, peşəkarlıq baxımından YUĞ teatrından qat-qat aşağı səviyyədədir, amma daha çox maaş alırlar. Söz verirlər, amma nədənsə düzəlmir. Başqa teatrlarda aktyor, rejissor, rəssam sayı daha çoxdur. Yüz nəfərlik heyətin içində baxırsan ki, 30 nəfər peşəkardır. YUĞ teatrında isə aktyorlu, rejissorlu cəmi elə 30 nəfər olar. Onların demək olar ki, hamısı peşəkarlardır. Teatr 35 ildir ki, aktiv fəaliyyət göstərir, amma diqqət ayrılmır. Nəzərə almaq lazımdır ki, alınan maaşla insanlar ailə dolandırır. Maaş indikindən beş dəfə artıq olsa, teatr da inkişaf edəcək, kino da.

Bundan başqa, dünyanın hər yerində aktyorlara universitetdə səhnədə oynamağı öyrədirlər, amma düzgün məşq eləməyi yox. Məşq etmək qaydaları üslubu yoxdur. Baxırsan ki, hərə bir cür edir. Bunun da bir sistemi olmalıdır.



## “TEATR RUHUMU SIĞALLAYIR”

**● Tamaşa nə vaxt uğurlu olur?**

● Haqqında danışılanda. Biz bir tamaşa oynadıq. Hamı ondan danışmağa başladı. Biri yaxşı deyirdi, biri pis, biri tamaşanın quruluşundan, digəri aktyor oyunundan danışırdı. Yeni müzakirə mövzusuna çevrilmişdi. Hətta teatra aid olmayan adamlar da ondan danışdılar. Mən heç bir fikrə reaksiya bildirmədim. Əgər bir ay tamaşadan danışırlarsa, deməli, bu tamaşa var. Ola bilər ki, lap yaxşı tamaşa oynayaq, amma o, hadisəyə çevrilməsin, heç kim ondan danışmasın. Lap ona görə Xalq artisti adı alsan da, demək tarixə düşməyib, onu tanıyan yoxdur.

**● Niyə aktyor oldunuz?**

● Kim tanınmaq istəyir, aktyor olur. Mən də şöhrət üçün, tanınmaq üçün gəlmişəm. Əvvəl filmlərə çəkilmişəm, sonra teatrda oyanmışam. “Azdrama”da işləməyə başladım. Gördüm ki, monitordakı görüntüdənsə, ona qədərki proses daha çox xoşuma gəlir. Bu isə teatrda həmişə var. Adam bir mərhələdən sonra başa düşür ki, ömrünü buna sərf eləmək istəyir. Kino mənim saçımı, teatr isə ruhumu sığallayır.

**● “Azdrama”dan niyə getdiniz?**

● Getmək lazım olduğunu hiss etdinsə, gərək gedəsən. Özünə xəyanət etmək olmaz. Azadlıq imtina etməkdən başlayır. Onu bacarmasan, heç nə edə bilməyəcəksən. Sonra qayıtmaq da olar.



**Fotolar:** Sabir Məmmədov/Global Media Group

Kaspi İDMAN
ÜÇ ƏSRİN QƏZETİ
27 APREL ŞƏNBƏ 2024
www.kaspi.az





# AVROKUBOK VƏSİQƏLƏRİ UĞRUNDA GƏRGİN MÜBARİZƏ

Azərbaycan bir neçə mövsüm sonra yenidən Avropa Liqasında təmsil olunacaq. Konfrans Liqası yaradılandan sonra ölkə çempionu Çempionlar Liqasında, digər üç komanda isə yeni turnirdə yarışırdı. Aparılan islahatlardan sonra ölkəmizi bu turnirdə kubokun qalibi təmsil edəcək.



Futbol üzrə Azərbaycan Premyer Liqasında mövsümün həlledici mərhələsidir. "Qarabağ" artıq bir neçə tur əvvəl çempionluğu rəsmiləşdirib. Ağdam təmsilçisi növbəti mövsüm ölkəmizi Çempionlar Liqasında təmsil edəcək. Avrokubok səhnəsinə çıxacaq digər kollektivlər isə hələlik bəlli deyil. Növbəti mövsüm Avropa Liqasında bir, Konfrans Liqasında isə iki komanda Azərbaycanı təmsil edəcək. Üç yerə altı iddiaçı var.

### KUBOKUN ƏHƏMİYYƏTİ ARTIB

Azərbaycan bir neçə mövsüm sonra yenidən Avropa Liqasında təmsil olunacaq. Konfrans Liqası yaradılandan sonra ölkə çempionu Çempionlar Liqasında, digər üç komanda isə yeni turnirdə yarışırdı. Lakin qitəmiqyaslı yarışlarda aparılan islahatlar növbəti mövsüm üçün Azərbaycana Avropa Liqası yeri verdi. Ölkəmizi bu turnirdə kubokun qalibi təmsil edəcək. Azərbaycan Kubokunda yarımfinal mərhələsi başa çatıb. İyunun 2-də keçiriləcək həlledici matçda "Qarabağ" və "Zirə" qalibi müəyyənləşdirəcəklər. Ağdam klubu artıq çempion kimi ÇL-ə gedəcəyindən kuboku da qazanarsa, qaydalara əsasən, Avropa Liqasına çempionatda ikinci yeri tutan kollektiv gedəcək. Bu ehtimalın mövcudluğu ikinci pilləni əldə etməyin əhəmiyyətini bir qədər də artırır.

### MÖVCUD MƏNZƏRƏ

Bu mövsüm ölkə çempionatı kifayət qədər rəqabətlidir. Düzdür, "Qarabağ" böyük üstünlüklə vaxtından xeyli əvvəl çempionluğu təmin etməyi bacardı. Ancaq digər klubların mübarizəsi olduqca gərgindir. "Qəbələ" böyük ehtimalla mövsümü sonuncu yerdə bitirəcək. "Kəpəz" isə liqada qalmaq yolunda böyük üstünlük əldə etməyi bacarıb.

Hazırda Avropa Liqası və Konfrans Liqasına olan üç yerə namizədlər "Zirə", "Sumqayıt", "Neftçi", "Sabah", "Səbail" və "Turan Tovuz"dur. "Araz Naxçıvan"ın da riyazi olaraq şansları var, amma bunlar çox cüzidir. "Zirə" 49 xalla ikinci pillədə qərarlaşıb. Komanda kubokda da şansını saxladığı üçün Avropa Liqasına əsas namizəddir. "Neftçi" ilə "Sumqayıt" 47 xalla növbəti pillələri bölüşdürürlər. "Sabah" onlardan bir xal geri qalır. "Səbail"lə "Turan Tovuz" isə 42 xalla şanslarını davam etdirirlər. Qarşıdakı beş turda hər bir qarşılaşma bu komandalar üçün həyati əhəmiyyətə malikdir.

## ŞANSLAR NECƏDİR?

Artıq qeyd etdiyimiz kimi, "Zirə"nin Avropa Liqasına yollanmaq ehtimalı daha çoxdur. Komanda ötən tur "Neftçi" üzərində vacib qələbə qazanmaqla vəziyyətini yaxşılaşdırıb. Komanda kubokdan olmasa belə, çempionatda ikinci yeri tutmaqla bunu əldə etmək əzmindədir.

Rəşad Sadıqovun yetirmələrinin qrafiki isə o qədər də asan deyil. "Turan Tovuz" səfəri, son turda "Səbail"ə qarşı ağır qarşılaşma var. Üstəlik, komanda "Qarabağ"la da üz-üzə gələcək. Ancaq çempionluğu təmin edən "atlılar"ın qarşıdakı görüşlərə nə dərəcədə əhəmiyyət verəcəyi sual doğurur.

Elə "Neftçi" üçün də yol hamar görünmür. Komandanın "Turan Tovuz"la, "Qarabağ"la və son turda "Sabah"la ağır oyunları var. "Sumqayıt"ı da avrokubok zonasın-dakı birbaşa rəqibləri ilə duellər gözləyir. Növbəti tur çempionla üz-üzə gələcək Samir Abasovun komandası öz meydanında "Səbail"lə qarşılaşacaq, "Sabah"ın qonağı olacaq.

### ƏN AĞIR OYUNLAR

İddiaçılar arasında ən ağır oyunlar artıq yuxarıda qeyd olunanlardan da aydınlaşdığı kimi "Sabah", "Turan Tovuz" və "Səbail"in iştirakı ilə keçiriləcək. Bu isə daha aşağı sıralarda qərarlaşan "Turan Tovuz"la "Səbail"in şanslarını müəyyən qədər azaldır. Tovuz klubu ötən tur öz meydanında "Sumqayıt"a yenilməklə işini daha da çətinə salıb. "Səbail" isə bu tur "Sabah" səfərində qələbə qazana bilməsə şanslarını minimuma endirəcək. Lakin "Sabah" əksinə, qalib gələ bilsə, Avropa Liqası olmasa belə, Konfrans Liqasına vəsiqəyə xeyli yaxınlaşacaq. Üstəlik, komanda Krunoslav Renduliçin baş məşqçi postuna gəlməsindən sonra həm oyun, həm nəticələr baxımından xeyli inkişafa nail olub.

Ümumilikdə götürdükdə Avropa Liqası mübarizəsi daha çox "Neftçi" və "Zirə" arasında gedir. Konfrans Liqası uğrunda isə "Sabah"la "Sumqayıt" ciddi rəqabət aparırlar. Həm mövcud xal durumu, həm də komandaların performansı şanslar barədə dəqiq nəsə deməyə imkan vermir. "Səbail"lə "Turan Tovuz" nisbətən uzaq düşüblər, lakin digər dörd kollektivin qitə arenasına çıxma ehtimalını təxminən eyni dəyərləndirmək olar.

## SON İLLƏRİN ƏN MARAQLI ÇEMPİONATI

Bir çox mütəxəssis 2023/24 mövsümünü son illərin ən maraqlı çempionatı hesab edir. "Qarabağ"ın rəqibləri üzərində üstünlüyü artıb. Bu, çempionluq mübarizəsinin son turlara qədər qalmamasına səbəb oldu. Lakin digər komandaların yaxın güclərdə olması rəqabətin artdığını deməyə imkan verir. Əgər ötən mövsümlərdə avrokubok iştirakçıları erkən müəyyənləşirdisə, bu dəfə yekun siyahı böyük ehtimalla son turda müəyyənləşəcək. Bu da mövsümün daha maraqlı alındığını demək üçün əsas verir.